www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 aprel 2015-ci il Çərşənbə axşamı № 84 (6112) Qiymәti 40 qəpik


**Xəbər**

## Ər intihar etmək istədi, arvadı özünü güllə qabağına verdi...

yazısı səh.14-də

**Gündəm**

### "İŞİD çoxdan Qafqazdadır, sadəcə, adı başqadır" - sabiq MTN zabitinin iddiası




Tanınmış politoloq Arzu Nağıyev ilginc açıqlamalarla çıxış etdi

yazısı səh.3-də

### İŞİD-çi azərbaycanlıların məhkəməsində şok faktlar ortaya çıxdı

yazısı səh.3-də

### İki güclü diaspor ermənilərə niyə uduzdu...

yazısı səh.4-də

### Bakıda məktəb direktoruna qarşı cinayət işi açıldı

yazısı səh.2-də

### AŞ PA-da Xocalı soyqırımının tanınması tələb ediləcək

yazısı səh.9-da

*Ağdamda tutulan erməni kəşfiyyatçısı:*

### "Basdırmaq üçün özümlə üç mina gətirmişdim"

yazısı səh.6-da

*Ekspert:*

### "Neftin qiyməti uzun müddət 40-70 dollar arasında oynayacaq"

yazısı səh.12-də

### Cavid Qurbanovun bankından "Yeni Müsavat"a təhdid dolu zəng gəldi

yazısı səh.11-də

### Konstitusiya Məhkəməsi xalqı, yoxsa bankları müdafiə edəcək...

yazısı səh.12-də

### "Laçın" yarmarkasında satıcılar şam işığında çalışır

yazısı səh.15-də

### General oğlunun bıçaqladığı şəxslə bağlı daha bir xəbər

yazısı səh.13-də

## ABŞ-la rəsmi Bakı arasında "atəşkəs" niyə pozuldu?

# AZƏRBAYCAN UĞRUNDA BÖYÜK SAVAŞ PİK HƏDDƏ

Prezident Əliyevin köməkçisindən sensasion açıqlamalar: "Bu gün Ukrayna uğrunda beynəlxalq güclər necə mübarizə aparırsa, strateji maraqlarını təmin etmək üçün də Azərbaycan uğrunda mübarizə gedir"; ABŞ-la korlanmış münasibətlərin kökündə "demokratik vəziyyət" kimi demoqogiyanın dayanmadığı aydın oldu...




yazısı səh.8-də

## AŞ PA-nın yaz sessiyası ermənilərə yasaq qoyulmaqla başladı - Strasburqdan reportaj

Avropa Şurasının binasında ermənilərin sərgisində "soyqırım" sözü işlətmək qadağan olundu; Azərbaycanla bağlı məsələ gündəlikdə olmasa da gündəmdədir

yazısı səh.5-də



*Pənah Hüseyn:*

### "Türkiyədə dəyişiklik istəyən qüvvələr artıb"

yazısı səh.4-də



*Həsən Zeynalov:*

### "Torpaqları azad etmədən başı dik gəzə bilmərik, o ləkəni siləcəyik..."

yazısı səh.10-da



*İsa Yaşar Tezel:*

### "Azərbaycan dövlətinin də bizim məsələmizə diqqət göstərməsini istəyirəm"

yazısı səh.6-da



# Prezident İranın müdafiə nazirini qəbul edib

**Prezident İlham Əliyev aprelin 20-də İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Hüseyn Dehqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, dövlət başçısı Azərbaycanla İran arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edib.**

İran prezidenti Həsən Ruhani ilə həm Azərbaycanda, həm İranda, həm də beynəlxalq təşkilatlar çərçivəsində görüşlərinin önəmini bildirən prezident İlham Əliyev birgə səylər nəticəsində əlaqələrimizin müxtəlif sahələrdə yüksək səviyyəyə qalxdığını qeyd edib.

Dövlət başçısı müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu vurğulayaraq hərbi sahədə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib, bu səfərin münasibətlərin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu qeyd edib. Öz növbəsində, nazir Hüseyn Dehqan İran-Azərbaycan münasibətlərinin daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıb. O, Heydər Əliyevin müasir İran-Azərbaycan əlaqələrinin memarı olduğunu qeyd edərək bu gün prezident İlham Əliyevin göstərdiyi siyasi iradə və qətiyyətin münasibətlərimizin gələcək inkişafı üçün möhkəm zəmin yaratdığını bildirib.

Görüşdə hərbi-texniki əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Ramiz Rzayev yenidən Ali Məhkəmənin sədri təyin edildi



**Prezident İlham Əliyev Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin təyin edilməsi haqqında sərəncam imzalayıb. "Qafqazinfo" xəbər verir ki, sərəncama görə, Ramiz Yaqub oğlu Rzayev Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilib. Xatırladaq ki, R. Rzayev 2005-ci il aprelin 19-dan Ali Məhkəmənin sədridir.**

# Cahangir Hacıyevin yerinə iyulda təyinat olacaq

**Azərbaycan Beynəlxalq Bankının (ABB) İdarə Heyətinin yeni sədri 2015-ci ilin iyulunda səhmdarların ümumi yığıncağında seçiləcək. Bunu maliyyə naziri Samir Şərifov brifinqdə deyib. Onun sözlərinə əsasən, bankın İdarə heyətinin üzvlərinin səlahiyyət müddəti bu ilin iyulunda başa çatır: "Həmin vaxt səhmdarların ümumi yığıncağı keçiriləcək. Yığıncaqda idarə heyətinin yeni sədri seçiləcək".**

ABB-nin özəlləşdirilməsi məsələsinə gəlincə, nazir qeyd edib ki, bu məsələ heç vaxt gündəmdən düşməyib: "Hökumət strateji vacib aktivlər istisna olmaqla ona məxsus aktivlərin özəlləşdirilməsinə həmişə hazır olmalıdır. Azərbaycan Beynəlxalq Bankına gəlincə, hökumət bu məsələdə də eyni fikirdədir".

Qeyd edək ki, ABB-nin bundan əvvəlki sədri Cahangir Hacıyev olub. O, bu il martın 18-də səhhəti ilə əlaqədar postunu tərk edib.

## "Elm" tədris mərkəzi
### MAGIC LANGUAGES

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə əsas təhlükədir"

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İranın müdafiə və silahlı qüvvələrə dəstək naziri, general-mayor Hüseyn Dehqanla görüşüb.**




Müdafiə Nazirliyinin rəsmi saytının məlumatında bildirilir H. Dehqanın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə Əliyevanın, sonra isə Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət ediblər.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayraqları qaldırılıb, qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra dövlət himnləri səsləndirilib. Rəsmi protokola uyğun olaraq general-mayor H. Dehqan Şərəf Kitabını imzalayıb.

Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə Z.Həsənov Azərbaycan-İran münasibətlərində qarşılıqlı etimadın yaradılması və inkişaf etdirilməsində H. Əliyevin və prezident İlham Əliyevin xidmətlərini xüsusi qeyd edib. Müdafiə naziri iki ölkə arasında əməkdaşlığın dostluq münasibətləri, qarşılıqlı inam üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini bir daha vurğulayıb.

Z. Həsənov bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ərazilərimizin işğal olunması faktını, bir milyonadək qaçqın və məcburi köçkün soydaşlarımızın problemini, o cümlədən münaqişənin regional sabitliyə əsas təhlükə yaratdığını diqqətə çatdırıb.

General-mayor H.Dehqan isə dövlətlərimizin əlaqələrinin qədim tarixə, mehriban dostluq ənənələrinə əsaslandığını, iki ölkə arasında siyasi, iqtisadi, mədəni, təhlükəsizlik və hərbi sahədə böyük əməkdaşlıq potensialının olduğunu vurğulayaraq İranın Azərbaycanın ərazi bütövlüyünü və ədalətli mövqeyini dəstəklədiyini bir daha bəyan edib. Sonra Azərbaycan və İran Silahlı Qüvvələri arasında əlaqələrin perspektivləri və müdafiə sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb. Görüşdə İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Möhsün Pak Ayin də iştirak edib.

## AŞ PA-da münaqişələr üzrə Alt Komitə yaradılıb

**AŞ PA yaz sessiyası çərçivəsində qurumun Monitorinq Komitəsinin iclası keçirilib. APA-nın Avropa bürosunun xəbərinə görə, iclasda Avropa Şurasına üzv ölkələr arasındakı münaqişələr üzrə xüsusi Alt Komitə yaradılıb.**

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, Avropa Şurasının bütün qurumları Dağlıq Qarabağ, Azərbaycanın qaçqın və məcburi köçkünlər problemini və Azərbaycan ərazilərinin işğalı məsələlərini daim nəzarətdə saxlamalıdır: "Mən bu gün assambleyanın plenar iclasındakı çıxışımda qeyd etdim ki, AŞ PA Bürosunda müxtəlif münaqişələr müzakirə olunub və biz çox istərdik ki, bu məsələlər xüsusi qurum daxilində müzakirə edilsin.

Çünki Ermənistan öz işğalçı siyasətindən əl çəkmədiyi üçün Azərbaycan daim provokasiyalara məruz qalır, baxmayaraq ki, Ermənistanın öz vətəndaşları, əsgərləri bu münaqişədən beziblər. Mən Ermənistandan qaçan erməni əsgərinin könüllü şəkildə Azərbaycana təslim olmasını əks etdirən fotoşəkli də assambleya iştirakçılarının diqqətinə çatdırdım. Ermənistan əsgəri Azərbaycana keçərək ölmək istəmədiyini, yaşamaq istədiyini deyir. Bu da onu sübut edir ki, ermənilər onlara aid olmayan torpaqlardan çəkilsələr, bu münaqişə həll olunar".

S. Seyidov deyib ki, onun plenar iclasdakı çıxışından sonra Monitorinq Komitəsinin toplantısında xüsusi Alt Komitə yaradılıb və bu komitədə digər münaqişələrlə yanaşı, Dağlıq Qarabağ münaqişəsi də daim müzakirə ediləcək.

# Bakıda məktəb direktoruna cinayət işi açıldı



**Ölkəmizdə təhsilin inkişafına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərlə mübarizə istiqamətində ardıcıl və təxirəsalınmaz tədbirlər davam etdirilir. Baş Prokurorluğun mətbuat xidmətindən "Qafqazinfo"ya verilən məlumata görə, R.Sadıqov adına Bakı şəhəri, 136 nömrəli tam orta məktəbin fəaliyyətinin yoxlanılmasına dair Təhsil Nazirliyindən daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılmışdır.**

Araşdırmalar zamanı orta məktəbin direktoru Lütfiyyə Qasımovanın vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə 2013-2014-cü tədris illərində ayrı-ayrı müəllimlərə işdə üstün şərait yaratmaq, dərs yükünün artırılması müqabilində hər ay onlardan müxtəlif məbləğlərdə pul almasında, habelə məktəbin bəzi müəllimləri işə gəlmədikləri halda onların guya məktəbdə dərs aparmaları barədə bilə-bilə rəsmi sənədlərə yalan məlumatlar daxil etməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

# Norveç təyyarəsi Bakıya məcburi eniş etdi

**Norveç aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Bakıya məcburi eniş etməsinin səbəbkarı olan Danimarka vətəndaşı dünyasını dəyişib. Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli APA-ya açıqlamasında deyib ki, təyyarədə vəziyyəti pisləşən Danimarka vətəndaşı Alen Lasten paytaxtın Sabunçu rayonundakı 3 saylı şəhər xəstəxanasına yerləşdirilib.**

Həkimlərin səyinə baxmayaraq, xəstənin həyatını xilas etmək mümkün olmayıb. O, ağciyər-ürək tutmasından dünyasını dəyişib. Bakıya eniş edərkən qızı onun yanında olub. Hazırda meyit morqdadır və onun ölkəsinə təhvil verilməsi üçün müvafiq işlər aparılır. Xatırladaq ki, aprelin 19-da Banqkok-Kopenhagen aviareysi üzrə uçan, Norveç aviaşirkətinə məxsus təyyarə Heydər Əliyev beynəlxalq hava limanına məcburi eniş edib. Təyyarənin göyərtəsində 288 sərnişin olub. Məcburi eniş 16:02-də baş verib və halı pisləşmiş 57 yaşlı Danimarka vətəndaşı Alen Lasten və qızı reysdən çıxarılıb. Onlar 3 saylı Sabunçu şəhər xəstəxanasına aparılıblar.

# Müsavat Çanaqqala zəfərini qeyd edəcək

**Aprelin 20-də Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. Divan Müsavat Partiyasının ölkədəki siyasi və iqtisadi vəziyyətlə bağlı planlaşdırdığı və keçirilməsi üçün Bakı şəhər İcra Hakimiyyətinə müraciət etdiyi 19 aprel 2015-ci il tarixli yürüşün keçirilməsinə icazə verilməməsini hakimiyyət tərəfindən vətəndaşların konstitusion hüquqlarının kobud şəkildə pozulması, sərbəst toplaşmaq hüququnun məhdudlaşdırılması kimi qiymətləndirib.**

İclasda növbəti kütləvi tədbirlərin keçirilməsi məqsədəuyğun hesab edilərək, aksiyaların forma və zamanı barədə partiyanın strukturları ilə məsləhətləşmələrin aparılmasının zəruriliyi bildirilib. Bakı Şəhər İcra Hakimiyyətinin qanunsuz hərəkətlərinin hüquqi müstəvidə çözülməsi üçün məhkəməyə müraciət edilməsi Divan üzvü Nemət Kərimliyə tapşırılıb.

24 aprel tarixdə saat 12.00-da Çanaqqala zəfərinin 100 illiyi ilə əlaqədar Bakıdakı Türk Şəhidliyində anım tədbirinin keçirilməsi qərara alınıb.

Minsk konfransının həmsədrləri Fransa və Rusiyanın dövlət başçıları Fransua Oland və Vladimir Putinin aprelin 24-də qondarma "erməni soyqırımı" ilə bağlı Ermənistana nəzərdə tutulan səfəri Qarabağ konfliktinin sülh yolu ilə həllində onlar tərəfindən neytrallığın pozulması və məsələnin diplomatik yolla həlli yolunda əngəl kimi qiymətləndirilib.

Müsavat Partiyasının başqanı Arif Hacılı İstanbul şəhərində dünyanın bir çox ölkələrində fəaliyyət göstərən Azərbaycan təşkilatlarının təmsilçiləri, Türkiyənin MHP partiyası və digər təşkilatlarının nümayəndələri ilə görüşləri barədə məlumat verib.

**Sonda cari məsələlərə baxılıb.**

❑ **E.SEYİDAĞA**

# Yevlaxda qan töküldü

**Yevlax şəhərində qan tökülüb. İlkin adlı şəhər sakini bıçaq yarası ilə xəstəxanaya gətirilib. Yevlax Polis İdarəsi əməkdaşlarının araşdırması nəticəsində məlum olub ki, 1993-cü ilə təvəllüdlü İlkin Rəhman oğlu Abışov yaşadağı Q.Quliyev küçəsi ev 4, mənzil 29-un qarşısında bıçaqlanıb. İ.Abışov polislərə özünü vurduğunu desə də, onun digər şəxs tərəfindən bıçaqlandığı bəlli olub. Hazırda həmin şəxsin tutulması üçün əməliyyat-axtarış tədbiri həyata keçirilir.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Rusiya xüsusi xidməti orqanları Dağıstanın Buynaksk şəhəri yaxınlığında terrorçulara qarşı xüsusi əməliyyat keçirib. BBC-nin məlumatına görə, əməliyyat aprelin 19-da axşamdan başlayıb. Silahlıların sığındığı ev mühasirəyə alınıb və döyüş nəticəsində bina qismən dağıdılıb. Hüquq-mühafizə orqanlarından bildiriblər ki, binada silahlılar arasında beynəlxalq terrorçu təşkilatlardan birin rəhbərləri var.**

# "İŞİD çoxdan Qafqazdadır, sadəcə, adları başqadır" - sabiq MTN zabitinin iddiası

## Tanınmış politoloq Arzu Nağıyev sensasion açıqlamalarla çıxış etdi

Qeyd edək ki, ötən həftə Şanxay Əməkdaşlıq Təşkilatının regional anti-terror qurumu şurasının Özbəkistan paytaxtı Daşkənddə keçirilən toplantısı zamanı Rusiya FTX-nin direktor müavini Sergey Smironv bildirib ki, İŞİD başqa terror təşkilatlarına nüfuz etməyə başlayıb. FTX-nin direktor müavini bildirib ki, İŞİD "İmarat Qafqaz" terror təşkilatına maraq göstərməyə və Şimali Qafqazda tərəfdar toplamağa başlayıb. Qeyd edək ki, son aylarda İŞİD-in Qafqaza gələcəyi ilə bağlı müxtəlif mənbələrdən, o cümlədən Rusiya və region ölkələri rəsmiləri, siyasi təhlilçilərin açıqlamaları yayılıb. Məsələ burasındadır ki, xeyli dərəcədə fəallaşan İŞİD-ə İraq və Suriyadan kənarda da qoşulanların sayı artıb. Əfqanıstanda, Liviyada, Misirdə, o cümlədən Nigeriyada islamçı qruplar İŞİD-ə biyət etdiklərini açıqlayıb. Şimali Qafqazda uzun illər islamçı qrupların fəal olduğunu nəzərə alsaq, İŞİD-in bu bölgəyə yerləşməsi də nəzəri baxımdan mümkün görünür.

"Bakı-Xəbər" qəzeti son sayında dərc olunan yazıda Suriya və İraqda məskunlaşan İŞİD-in öz qərargahını Şimali Qafqaza köçürmək istədiyi qeyd olunur. Yazıda xatırladılır ki, Qafqazda fəaliyyət göstərən terror qruplaşması üzvlərinin bir çoxu artıq İŞİD-ə sədaqət andı içib. Bütün bunlar isə bu bölgə üçün İŞİD təhdidinin artmaqda olduğunu göstərir. Qəzetin məqaləsində qeyd olunur ki, İŞİD-in Qafqaza yayılması xəbərlərinin arxasında çox maraqlı və qorxunc bir ehtimal da var. Sitat: "Bəlkə Qafqazda nə vaxtsa tam yeni, İraq və Suriyada olduğundan fərqli bir İŞİD meydana çıxacaq? Bəlkə bu yeni İŞİD-i yaratmaq hansısa bir region dövlətinin maraqları çərçivəsindədir və guya İŞİD-çilərin İraqdan, Suriyadan Qafqaza gəlişi barədə informasiyalar yaymaqla yeni "Qafqaz İŞİD-nin" yaradılması prosesini diqqətlərdən yayındırmaq istəyir? Elə isə yeni "Qafqaz İŞİD-nin" planları nədir? Azərbaycana, Gürcüstana qarşı yeni İŞİD-dən istifadə



Arzu Nağıyev

etmək planları varmı? Varsa, bu planlar hansı şərtlər daxilində - Azərbaycanın, Gürcüstanın birmənalı Qərb, ya birmənalı rusiyayönümlü siyasət aparacaqları halda işə düşəcək? Göründüyü kimi, məsələ çox ciddidir və "İŞİD Qafqaza İraq və Suriyadan necə yayıla bilər" sualını şübhə ilə verənlər üçün yaxşı düşüncə materialıdır - "İŞİD Qafqaza Suriya və İraqdan gəlməyəcək, burada yenisi yaradılacaq, hətta bəlkə də artıq yaradılır" deyə, məqalədə qeyd olunur.

**İŞİD-in Qafqaza nüfuz etmə ehtimalını "Yeni Müsavat"a şərh edən politoloq, sabiq təhlükəsizlik zabiti Arzu Nağıyev deyir ki, bir qayda olaraq yaz aylarında Şimali Qafqazdakı terrorçu qruplaşmalar fəallaşır. Ekspertin fikrincə, Şimali Qafqaz yaraqlılarının da əsas hədəfi "xilafət" yaratmaq olduğu üçün nəzəri baxımdan İŞİD-in Şimali Qafqaza yerləşməsi mümkündür:** "Məlumdur ki, yaz aylarında qarın əriməsi və meşələrdə ağacların yarpaqlaması ilə döyüş şəraiti və taktikası dəyişir. Daha doğrusu, maskalanma və gizlənmə ehtimalı böyüyür, meşə-dağlara çəkilən yaraqlıların sayı çoxalır. Xarici ölkələrdən də yaraqlıların axını güclənir. Məlumdur ki, Şimali Qafqazda və Orta Asiyadakı yaraqlıların bir məqsədi var: islam xilafətini yaratmaq. Həm də bir-birinə loyal olan qüvvələrdir. Belə olduğu halda İŞİD və digər silahlı qüvvələrin birgə hərbi əməliyyatlar aparması istisna deyil . Unutmaq lazım deyil ki, bu qruplaşmalar dolayı yollarla eyni mərkəzdən idarə edilir və maliyyələşir. Kəşfiyyat generalının dediyinə bir əlavə də etmək olar ki, İŞİD çoxdan Qafqazdadır, sadəcə olaraq, adları başqadır və bu məlumat elə bir sensasiya doğurmayan məlumatdır".

**A.Nağıyev deyir ki, bu cür açıqlamalar məqsədli şəkildə ola bilər. Eyni zamanda ekspertə görə, daha böyük dəstək almaq və diqqəti çəkmək üçün Qafqazdakı hansısa qruplar İŞİD-ə biyət etdiyini elan edə bilər. Ancaq eyni zamanda A.Nağıyev istisna etmir ki, bu cür bəyanatlar kəşfiyyatın özünün marağına hesablanıb, yeni əməliyyatlar və ya kəşfiyyat büdcəsini böyütməyə hesablana bilər:** "Qeyd etdiyimiz kimi, məram və məqsəd eynidir, sadəcə olaraq, bir neçə məsələni dəqiqləşdirmək kifayətdir. Təcrübələr göstərir ki, "Boko haram" və digər qruplar da biyət edir, maliyyə mənbəyi və ya digər məsələləri həll etmək üçün birləşirlər".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "Namaz qılmağın qurbanı olmuşuq..."

## İŞİD-çi azərbaycanlıların məhkəməsində şok faktlar ortaya çıxdı; təqsirləndirilən şəxsin anası: "Bir gün öncə otağı yığışdırmışdım, patron tapıldı..."



**Aprelin 20-də Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyadakı döyüşlərdə iştirak etmək ittihamı ilə həbs olunanlardan 6 nəfərin məhkəmə prosesi davam etdirildi. Ənvər Seyidovun sədrliyi ilə keçən proses 11:00-a təyin olunsa da, bir saat gec başladı.**

Məhkəmənin gec başlamasından istifadə edən təqsirləndirilən şəxslər prosesdə iştirak edən media nümayəndələrinə müraciət etdilər. Onlar baş verənlərin obyektiv, olduğu kimi işıqlandırılmasını xahiş etdilər. Yalnız o zaman həqiqətin üzə çıxacağını, təqsirsiz olmalarının sübut olunacağını söylədilər.

**Saat 12:00-da proses təqsirləndirilən şəxs Tariyel Mustafayevin həyat yoldaşı Yeganə Şirinovanın ifadələri ilə başladı:** "Həyat yoldaşımın Suriyaya müalicə üçün getdiyini demişəm. Amma başqa şeylər yazılıb. 3 azyaşlı övladımız var. Ərim əvvəlcə Türkiyəyə gedib. Orada məsləhət görüblər ki, xəstəliyin müalicəsi Suriyadadır. Şəriətdə "cin çıxarma" xəstəliyi var. Ərimdə bu xəstəlik mövcuddur. Özüm də Türkiyədə müalicə olunmuşam. Sonra Tariyel Suriyadan yanıma gəlib. O, Suriyaya başqa məqsəd üçün getməyib. Orada qala bilməzdi. İstintaqdakı ifadəmdə adımdan yazılıb ki, guya ərimə Suriyaya getməmək və orada döyüşməməklə bağlı xahiş etmişəm. İfadəmi oxuya bilmədim. Çox həyəcanlı idim. Oxumağa müstəntiq icazə də vermədi. Dedi ki, nə demisən, onu yazmışam. Amma tamam fərqli şeylər yazılıb. Onunla aramızda Suriya ilə bağlı söhbət heç vaxt olmayıb".

**Şahidin ifadəsinin bu yerində T.Mustafayev müdaxilə etdi. Buna səbəb həyat yoldaşının "cin çıxarma" söhbətinə hakimin gülməsi oldu. Təqsirləndirilən şəxs buna etiraz etdi:** "Kiməsə bu söhbət gülməli gələ bilər. Amma burada gülməli nə var ki? Namaz qılmağın qurbanı olmuşuq. Günahımız yalnız bundan ibarətdir. Suriyaya getmək nə vaxtdan cinayət olub? Daim sözün düzünü demişəm. Günahsız cəza versələr belə, sona qədər düz söz nədir, onu deyəcəyəm. Bizim hamımızı həbs edən Emin adlı şəxs var. O, MTN-də mənə elə hədə-qorxu gəldi... Suriyadakı döyüşlərdə iştirakımı təsdiq edən fakt varsa, ortaya qoyun. Bundan sonra istənilən cəzanı çəkməyə hazıram. Müstəntiq Cavid Quluzadə mənə deyir ki, sən qurbansan. Başa düşmürəm, məndən başqa qurbanlıq qoyun tapılmadı? Dövlətimi daim sevmişəm. Müstəntiq onlara işləməyimi tələb etdi. İmtina etdim. Cənab hakim, bizi sevməyə bilərsiniz. Görürəm ki, haqqı danışmağımız pisinizə gəlir".

**Şahid ifadəsinə davam etdi:** "Mənə ərimin Suriyadakı döyüşlərdə iştirak etməsi ilə bağlı suallar verildi. Olanları dedim. Müstəntiq bildirdi ki, səni də həyat yoldaşının yanına göndərərəm. Bu cür təzyiqlər edildi".

**Daha sonra digər təqsirləndirilən şəxs Ruslan Mustafayevin anası Əfiqə Mustafayeva evlərində aparılan axtarışla bağlı ifadə verdi:** "İşdə olduğum vaxt qonşular zəng vurdular. Evimizin qarşısında iki dövlət avtomobilinin dayandığını bildirdilər. Təcili evə gəldim. 12-13 nəfər idi. Bildirdilər ki, oğlunuzun həbs olunması ilə bağlı axtarış aparılmalıdır. Ruslangil olan otaq bağlı idi. Maskalarını taxdılar. Sonra axtarışa başladılar. Ruslangilin otağına çatanda kamera ilə axtarış apardılar. Çarpayının altından patron çıxdı. Yerimdə donub qaldım. Dedilər ki, patronları oğlun qoyub. İnana bilmədim. Çünki bir gün öncə otağı yığışdırmışdım. Övladım kiçik yaşlarında deyirdi ki, müsəlman ölkəsində yaşamaq istəyirəm. Evimizdə axtarış aparan şəxslər heç bir sənəd təqdim etmədilər. Ruslanın 4 yaşlı övladının oyuncaqları həmin otaqda idi. Necə ola bilər ki, uşaq patronu görməsin? Mən, ərim və Ruslanın arvadı patronu ora qoymarıq. Bəs onda kim qoydu? Protokolu imzaladım. Başqa yolum da yox idi. Çünki patron evdən çıxmışdı. Fəxr edirəm ki, oğlum namaz qılır. Sonuncu dəfə xaricdə olanda ona zəng etmişdim. Mənə dedi ki, Türkiyədəyəm, 3 günə gələcəm. Dediyi vaxtda gəldi. Oğlum orta təhsillidir. Suriyaya heç vaxt gedə bilməz. Çünki iki metr qabağı görə bilmir. Gözləri zəif görür".

**Anasının ifadəsinin bu yerində Ruslan Mustafayev MTN-də müstəntiq Cavid Quluzadənin ona dediyi sözləri prosesdə elan etdi:** "C.Quluzadə patronu mənə göstərək dedi ki, evindən tapılıb. Təbii ki, belə bir şeyin mümkünsüz olduğunu bildirdim. Müstəntiq qeyd etdi ki, digər dostlarının evindən də silah çıxacaq. Mənə patron göstərildən iki gün sonra evimizdə axtarış aparılıb. Göründüyü kimi, iş əvvəlcədən quraşdırılıb".

**Növbəti məhkəmə aprelin 27-də saat 11:00-da olacaq.**

❑ **Cavanşir ABBASLI**

# İki güclü diaspor ermənilərə niyə uduzdu...

**Ərəstun Oruclu:** "Burda məsələ diasporların mübarizəsində həll olunmurdu, Avropanın mühafizəkar siyasi dairələri belə bir qərarın verilməsində maraqlı idi"

**Roma papasından sonra Avropa Parlamentinin (AP) saxta "erməni soyqırımı" ilə bağlı qətnamə qəbul edərək ədalətsizliyə, şər-böhtana stimul verməsi ətrafında dartışmalar davam edir. Doğrudur, dünyada erməni diasporunun əlində oyuncağa çevrilən, yaxud türk-müsəlman dünyasına qarşı erməni faktorundan istifadə edən xeyli dairələr var. Lakin Azərbaycan və Türkiyənin xaricdəki diaspora təşkilatlarının birgə fəaliyyəti çox məsələlərdə öz sözünü deyə bilərdi. Qondarma "soyqırım"ın 100 illik tədbirləri ərəfəsində hər iki ölkənin rəsmi dairələri birgə fəaliyyət göstəriləcəyini bəyan etmişdi.**

Eyni zamanda Azərbaycanın Diaspor üzrə Dövlət Komitəsinin rəhbərliyi də erməni yalanlarına qarşı iki qardaşın birgə fəaliyyətini çıxış yollarından biri hesab edərək fəaliyyətin gücləndiriləcəyini demişdi. Lakin görünən budur ki, həm maliyyə, həm say baxımından ermənilərdən üstün olan Türkiyə və Azərbaycanın diaspor təşkilatları erməni yalanlarını alt-üst etməyə nail olmadılar. On milyonları özündə birləşdirən diaspora təşkilatlarımızın uduzmasının səbəbləri barədə Diaspora Komitəsinin rəyini öyrənə bilmədik. Bildirildi ki, komitə rəhbərliyi Bakıdakı mühüm tədbirə hazırlaşdığı üçün ciddi məşğuldur.

Qeyd edək ki, bəzi müşahidçilər Ərdoğan hökumətinin İsraillə, həmçinin ayrı-ayrı Qərb dairələri ilə münasibətlərində problemlərinin yaranması faktına da diqqət çəkir. Hesab olunur ki, ABŞ başda olmaqla, dünyanın bir sıra aparıcı gücləri ilə yaşanan problemlər, həmçinin yəhudi lobbisinin Türkiyəyə arxa çevirməsi ermənilərin işinə yarayıb.

**Məsələ ilə bağlı fikirlərini bölüşən politoloq Ərəstun Oruclu isə maraqlı arqumentlərlə çıxış etdi:** "Mən bunu ermənilərin qələbəsi kimi təqdim etməzdim. Bu, Türkiyənin məğlubiyyətidir. Ona görə ki, əslində həm Vatikan, həm Avropa Parlamenti tərəfindən bu tanınma paradı Türkiyənin xarici siyasətinə verilən qiymət, yaxud cavabdır. Ərdoğan hökuməti NATO üzvü olduğu halda gah Çinlə hərbi əməkdaşlığa getdi, gah Rusiya ilə müxtəlif yaxınlaşmalara imza atdı. Tanınma məsələsi ilə bağlı baş verənlər də hamısı buna cavab idi. O mənada düşünürəm ki, bu, ermənilərin qələbəsidir, sadəcə, Ərdoğan hökumətinin məğlubiyyətidir".

**Ə.Oruclunun sözlərinə görə, əslində dramatik heç bir şey baş verməyib. Roma papasının "erməni soyqırımı" deməsi heç nəyi dəyişmir:** "Avropa Parlamentinin qətnaməsinə gəlincə, o, tövsiyə xarakteri daşıyır. Yəni Avropa Parlamentinin elə bir qətnaməsi heç bir halda hər hansı Avropa ölkəsi, yaxud ümumilikdə Avropa Birliyi üçün yerinə yetirilməsi zəruri olan bir qərar ola bilməz. Orda yerinə yetiriləcək bir şey yoxdur. Yəni tövsiyə verilib ki, Türkiyə və digər Avropa ölkələri də bunu tanısın".



**ABŞ Konqresindəki təşəbbüslərə və Türkiyəyə qarşı milyardlarla dollarlıq təzminatın qaldırılmasına əsas verə biləcək qərarların qəbulu perspektivinə gəldikdə, Ə.Oruclu qeyd etdi ki, bütün bunlar hamısı mənasız şeylərdir:** "Çünki təzminat o halda ola bilər ki, ortada ciddi sübut və dəlillər olsun. Məsələn, deyək ki, Almaniya müharibədən sonra İsrailə təzminat ödəməyə məcbur edildi. Çünki burada adbaad qətlə yetirilmiş yəhudilərin haqqında faktlar, məlumatlar var idi. Erməni məsələsinə gəlincə, burda o qədər uydurmalar, yalanlar var ki, bunu araşdırmaq, müəyyənləşdirmək üçün bəlkə on illərlə vaxt lazımdır. İstənilən halda düşünmürəm ki, bu, mümkün olan bir şeydir. Özü də 100 il əvvəl baş vermiş bir hadisəyə görə...Hələ bunun baş verib-verməməsi, yaxud nə şəkildə baş verməsi özü də ciddi bir sualdır, mən hələ detallardan danışmıram". **Ekspert bununla belə, Türkiyənin narahat olduğunu qəbul edir:** "Türkiyənin narahatlığı təbiidir. Çünki bu, dövlətin imici məsələsidir. Bu, onun göstəricisidir ki, artıq Türkiyənin üzərinə yeriyirlər. Mən bundan narahatam. O ki qaldı kiminsə "erməni soyqırımı" barədə qətnaməni qəbul eləməsi, yaxud Türkiyəyə "sən də bunu tanı" tövsiyəsini eləməsi mənasız şeylərdir. Bunlar narahatlıq doğuracaq məsələlər deyil. Lakin bu məsələlər Türkiyənin adında neqativ bir fonun yaradılmasından gedir".

**Ə.Oruclu təsdiqləyir ki, bu məsələ Azərbaycanı da ciddi şəkildə narahat edir:** "Azərbaycanın da xarici siyasətində elə Türkiyənin xarici siyasətinə oxşar çalarlar var. Sadəcə olaraq, "erməni soyqırımı" deyilən şeyə Azərbaycanın heç bir aidiyyəti yoxdur. Azərbaycanla bağlı problem odur ki, Qarabağın Ermənistan tərəfindən işğal olunması məsələsi fakt olaraq tanınmır. Bu istiqamətdə isə hansı addımlar ola bilər? Deyək ki, qondarma "DQR"-in tanınması mümkün olan məsələ deyil. Bizim burda uduşumuz hələlik bundan ibarətdir ki, bu münaqişənin açarı Rusiyanın əlindədir. Bunu Rusiya yaradıb, Rusiya idarə edir və Moskva bu münaqişədən Azərbaycanla Ermənistana təzyiq vasitəsi kimi istifadə edir. Rusiya bununla bölgədə öz geosiyasi mövcudluğunu qoruyub-saxlamağa çalışır. Bu səbəbdən mən düşünmürəm ki, Qarabağla əlaqəli bizim ziyanımıza hansısa qətnamə qəbul oluna bilər".

**Ə.Oruclunun qənaəti budur ki, burda məsələ diasporların mübarizəsində həll olunmurdu, Avropanın mühafizəkar siyasi dairələri belə bir qərarın verilməsində maraqlı idi:** "Bunun da iki səbəbi var: birinci, Türkiyənin Avropa Birliyinə gedən yolunu birdəfəlik bağlamaq; ikinci, Avropada durmadan artmaqda olan radikal meyllərin daşıyıcıları olan millətçi-dinçi-mühafizəkar kəsimin dəstəyini qazanmaq".

**"Avropa Parlamentinin Türkiyəyə münasibətinin kökündə prinsip durur". Moderator.az xəbər verir ki, bunu açıqlamasında Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, millət vəkili Fərəc Quliyev Avropa Parlamentinin qondarma "erməni soyqırımı"na dair çıxardığı qətnaməyə münasibət bildirərkən deyib. Deputat bildirib ki, onlar Türkiyəni, türk dünyasını bütöv görmək istəmirlər:** "Ermənilərin 4 T düsturunun həyata keçməsini istəyirlər. Məqsəd budur. Son vaxtlar Roma papasının avantürist çıxışı onu göstərdi ki, onlar nə siyasət, nə də din sahəsində tolerant davranmırlar. Yəni qərəzli şəkildə, öz siyasi məqsədləri üçün başqa sivilizasiyalara qarşı hər şeydən istifadə edirlər. Ona görə də bu qərarlardan nəticə çıxarıb, öz sivilizasiyamızın ciddi şəkildə toparlanmasını təmin etməliyik. Bunun üçün türk dövlətlərinin birliyi istiqamətində ciddi işlər görülməlidir".

❑ **E.PAŞASOY**



# "Türkiyə siyasəti, demokratiyası çox ciddi bir mərhələdədir"

**Pənah Hüseyn:** "Qardaş ölkədə dəyişiklik istəyən qüvvələr artıb"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn Türkiyədə səfərdə olub. Dünya Azərbaycanlıları Konqresinin İstanbulda keçirilən qurultayında iştirak etmək üçün qardaş ölkəyə səfərə dəvət edilən Pənah Hüseyn səfər təəssüratlarını "Yeni Müsavat"la bölüşüb. DAK-ın qurultayında iştirak və çıxış edib öz təbriklərini çatdırdığını bildirən Pənah Hüseyn dedi ki, qurultay qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı kampaniya dövrünə düşdüyü üçün qurultayın da əsas mövzusu bu məsələdən ibarət olub: "Türkiyədən, İrandan, Azərbaycandan, Avropadan, Rusiyadan böyük bir heyət təmsil olunurdu. Tədbir yüksək səviyyədə keçdi".**

P.Hüseyn hazırda Türkiyənin 7 iyunda keçiriləcək parlament seçkilərinə ciddi hazırlaşdığından da danışdı: "Bizim səfərimiz həm də Türkiyədə seçki kampaniyasının getdiyi dövrə təsadüf etdiyindən qarşıdakı seçkilərlə, seçki kampaniyası ilə bağlı da bizdə maraqlı təəssüratlar yarandı. Qardaş ölkədə seçkilərin uğurlu keçməsini arzulamaqdan başqa bir təmənnamız yoxdur. Türkiyədə tanınmış siyasətçi dostlarımızla çox maraqlı görüşlərimiz oldu".

**Pənah Hüseyn** seçki kampaniyasının gedişi, prosesin necə sonuclanacağı ilə bağlı qənaətinin olduğunu bildirdi: "Mənim bir qənaətim var. Amma detallarına, təfərrüatına getmək istəmirəm. Türkiyə siyasəti, Türkiyə demokratiyası çox ciddi bir mərhələdədir. Əlbəttə ki, seçkinin nəticələrindən çox ciddi məsələlər asılı olacaq. Bizim sadə vətəndaşlarla, seçicilərlə də seçki ilə bağlı söhbətlərimiz oldu. Müxtəlif fikirlər səsləndi. Lakin mənim qənaətim ondan ibarət oldu ki, Türkiyədə dəyişim istəyən qüvvələr artıb. Koalisiyon hökumət qurulması tərəfdarları çoxalıb. Cümhurbaşqanlığı sisteminin qurulmasının tərəfdarları da artıq formalaşıb. Əsasən parlamentar respublika və Türkiyə tipli cümhurbaşqanlığı deyilən bir sistemin sistemin arasında seçim olacaq. Mən rast gəldiyim faktlara, dinlədiyim fikirlərə əsasən bunları deyirəm".

**"Bəllidir ki, Türkiyədə seçkilərdə əsas mübarizə 4 partiya (AKP, CHP, MHP, HDP) arasında gedir. Növbəti seçimlərdə şəkillənmə necə ola bilər" sualını P.Hüseyn belə cavablandırdı:** "Mənim fikrimcə, müxalifət bu seçkidən əvvəlki seçkilərlə müqayisədə güclənmiş çıxacaq. Amma təkpartiyalı hakimiyyət davam edəcək, yoxsa koalision hakimiyyət qurulacağını indidən söyləmək çətindir".

**"Qondarma "erməni soyqırımı" ilə bağlı gedən son proseslərdən, Avropa Parlamentinin "soyqırımı" tanımasından Türkiyədə, cəmiyyətdə narahatlıq yaşanırmı" sualına AXP sədri belə cavab verdi:** "Gedən prosesə çox böyük hiddət və qəzəb var. Türkiyə cəmiyyəti yuxarıda dediyimiz o siyasi qütbləşmədən asılı olmayaraq, bu məsələdə yekdildir. Türkiyə dövlətinin mənafelərinin qorunması şüarlarının təzahürü daha çox hiss olunur. Yəni açığı, bu kampaniyadan, prosesdən Türkiyə cəmiyyətində bir sınıqlıq müşahidə hiss eləmədim".

❑ **Etibar SEYİDAĞA**

**Aprelin 20-də Avropa Şurası Parlament Assambleyasının yaz sessiyası işə başlayıb. Sessiya başlamazdan öncə AŞ-nin binasında Ermənistan nümayəndə heyətinin qondarma erməni soyqırımının 100 illiyi ilə bağlı sərgisi təqdim olunub. Ekspozisiyada “erməni soyqırımı” haqqında Avropa mediasında dərc edilən yazılar, foto və rəsm əsərləri var. Ermənilərin təkidinə baxmayaraq Avropa Şurası Parlament Assambleyasının rəhbərliyi “soyqırım” ifadəsinin işlədilməsini məqbul saymayıb.**




# AŞ PA-nın yaz sessiyası ermənilərə yasaq qoyulmaqla başladı

## Avropa Şurasının binasında ermənilərin sərgisində “soyqırım” sözü işlətmək qadağan olundu; Azərbaycanla bağlı məsələ gündəlikdə olmasa da gündəmdədir

Bu səbəbdən çıxış edənlər “qətliam” kəlməsindən istifadə edib. Açılışda iştirak edən Ann Brasör bildirib ki, Avropa Şurası münaqişələr nəticəsində qaçqın və köçkünlərin olmasını, buna səbəb olan konfliktləri pisləməlidir.

Sessiyadan öncə AŞ PA sədri xanım Ann Brasör jurnalistlər üçün brifinq keçirib. A.Brasör sessiyada əsasən Rusiyanın Ukraynaya hərbi təcavüzü, terrorizmlə mübarizə tədbirləri, Avropa Şurasına üzv ölkələrin Avropa Konvensiyasına əməl etməsi məsələlərinin müzakirə ediləcəyini, qurumun komitələrində hazırlanan hesabatların dinlənəcəyini deyib: “Qurumu narahat edən məsələlərdən biri də Aralıq dənizində yaranan fəlakətli durum və münaqişə bölgəsindən Avropa məkanına çoxsaylı qaçqınların gəlməsidir. Bu məsələ Avropa Şurası Parlament Assambleyasının gündəmindəki əsas məsələlərdən biridir”.

**A.Brassör bir müddət öncə gerçəkləşdirdiyi Türkiyə səfərindən də danışıb. AŞ PA sədri Türkiyənin regionda baş verən münaqişələrə görə ölkəsini tərk edən qaçqınlarla bağlı siyasətini bəyəndiyini deyib:** “Türkiyə-Suriya sərhədindəki qaçqınlar ordusu məni heyrətə gətirdi. Türkiyə dövləti bu qaçqınları qəbul edib, onlara ilkin şərait yaradaraq çox böyük işlər görüb. Biz Türkiyənin bu hərəkətini mütləq dəstəkləməliyik. Mən bəzi Avropa siyasətçilərinin Avropada qaçqınlar üçün xüsusi düşərgələrin yaradılmasına qarşı çıxmalarına gördükdə utanc hissi keçirirəm”.

**Ann Brassör jurnalistlərin sualına cavab olaraq Azərbaycan qaçqınları və məcburi köçkünlərinin durumu haqqında da fikrini bildirib:** “İstər qaçqın olsun, istərsə də bir ölkənin daxilində məcburi köçkün, belə bir vəziyyət qəbuledilməzdir. Biz bütün üzv ölkələrimizdə baş verən bu cür münaqişələr səbəbi ilə bu qədər qaçqın və məcburi köçkünün olmasını və buna səbəb olan münaqişələri qətiyyətlə pisləməliyik. Zorakılıq əməlləri və ya siyasi səbəblər nəticəsində qaçqın düşmüş bütün insanlarla həmrəy olmalıyıq. Azərbaycanda Xocalı faciəsinə həsr edilmiş abidəni ziyarət edib-etmədiyimi soruşdunuz. Deməliyəm ki, mən ötən il iki dəfə Azərbaycana səfər etmişəm, amma yaxın zamanlarda belə bir səfərim planlaşdırılmayıb. Ancaq bir daha deyirəm ki, mən bütün zorakı əməllərin və təcavüzlərin qurbanlarının xatirəsini əziz tuturam. Çünki təcavüz heç bir zaman cavab ola bilməz. Bundan başqa, Ermənistana qarşı sanksiya məsələsini qaldırdınız. Bəli, hərdən sanksiyalar da tətbiq etmək lazımdır. Amma ən vacib olan məsələ dialoqdur. Mən münaqişə tərəfləri olan ölkələrə hər səfərimdə tərəfləri barışdırmağa çalışmışam. Bunun nə qədər çətin və mürəkkəb olduğunu çox gözəl başa düşürəm, amma buna yenə də inanıram və bir daha bildirirəm ki, çıxış yolu yalnız və yalnız tərəflər arasındakı dialoqdur”.




Toplantının ilk günündə sessiyanın gündəliyi təsdiqlənib. Daha sonra isə İspaniyadan olan deputat Pedro Aqramuntun Avropa Şurasının və Büronun qış sessiyasından sonra gördüyü işlərlə bağlı hesabatı təqdim edib.

**Ardınca cari məsələlərin müzakirəsinə başlanıb. Andres Qross FİFA-dakı korrupsiya ittihamları ilə bağlı məsələnin araşdırılmasının AŞ PA-nın gündəliyinə salınmasını təklif edib. Deputat bildirib ki, bu məsələnin AŞPA-nın diqqətində olmasını, məsələnin araşdırılması üçün xüsusi komissiya yaradılmasını doğru sayır. Xanım Ann Brasör bu təklifə qarşı olduğunu deyib:** “Yaxınlarda FİFA-da prezident seçkisi keçiriləcək. Düşünürəm ki, AŞPA-nın korrupsiya ehtimalları ilə bağlı xüsusi araşdırma qrupunun yaradılması seçkinin nəticələrinə təsir edə bilər. Bu səbəbdən araşdırmalara seçkidən sonra - iyun ayında keçiriləcək yay sessiyasında başlamaq daha uyğun olar. Yay sessiyasına FİFA-nın indiki və yeni sədri dəvət edilər və onlar qurum qarşısında çıxış edər, bizi narahat edən suallları cavablandırarlar".

**Ukrayna Ali Radasının AŞ-PA-dakı təmsilçisi Ariyev Rusiyanın Ukraynaya təcavüzünə xüsusi diqqət ayrılmasını, münaqişənin yaratdığı nəticələrin aradan qaldırılması üçün Avropa strukturlarının fəal müdaxiləsinə ehtiyac olduğunu deyib:** “Bu gün Ukrayna Rusiyanın genişmiqyaslı hücumu ilə üz-üzədir. Beynəlxalq səviyyədə cəhdlərə baxmayaraq, təcavüzün dayandırılması üçün Rusiya heç bir addım atmır. Bu durum AŞ PA-nı, eləcə də digər beynəlxalq institutları ciddi narahat etməlidir. Biz İŞİD terroru ilə bağlı Rusiyanın Ukraynadakı terroruna da xüsusi diqqət ayırmalıyıq”.

**Ariyev çıxışında Krımın işğalı məsələsinə də toxunub:** “Rusiyanın Krımı növbəti dəfə işğal etməsinin 1 il tamam olur. Orada insanlar Kremlin güclü basqısı altında yaşayır. Tatar icmasının 500-dən çox fəalı həbs edilib. Onların taleyi ilə bağlı hər hansı informasiya almaq imkanları olduqca məhduddur. Yarımadada müxalif düşüncəli insanlar milliyyətindən asılı olmayaraq güclü təqib altındadır. Tatar Məclisinin üzvləri Federal Təhlükəsizlik Xidməti əməkdaşlarının davamlı nəzarəti altındadır. Krım tatarlarının lideri Mustafa Cəmiloğlu bir ilə yaxındır vətəninə buraxılmır. Tatar dilində yayımlanan tele-radiokanallar, tədris ukraynaca olan məktəblər, universitetlər bağlanır. İnsanların sərbəst toplaşmaq, söz azadlığı ilə yanaşı mülkiyyət haqları da kobud şəkildə tapdanır. Düşünürəm ki, AŞPA-nın yaz sessiyasında münaqişənin aradan qaldırılması üçün önəmli qərarlar qəbul ediləcək”.

**Danimarkalı deputat cənab Land çıxışında insan haqları məsələsinə xüsusi diqqət ayrılmasını istəyib və Azərbaycanı insan haqlarının qorunmadığı ölkələrə nümunə göstərib:** “AŞPA-nın yaz sessiyası Azərbaycan kimi Avropa Konvensiyalarını və Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri pozan ölkələri də müzakirə etməlidir. Bu ölkələrdə yaşayan insanların Avropa strukturlarından böyük gözləntiləri var, onlar AŞ PA-dan hakimiyyətlərinə qarşı tənqidi çıxışlar eşitmək istəyir. Biz həmin insanların azad, qanunlara saygı şəraitində yaşamasını təmin etmək üçün səylər göstərməliyik. Bu gün Azərbaycanda faktiki olaraq söz azadlığı qorunmur, insanlar siyasi görüşlərinə görə təqib olunur. Biz bu qorxu şəraitinin götürülməsi üçün real addımlar atmalıyıq. Bu, Avropa Konvensiyasının açıq-aşkar pozulması deməkdir. AŞ PA-nın üzvü olan Rusiyanın Ukraynada törətdikləri də bütün hüquq normalarının tapdanması deməkdir. Rusiya Ukraynadakı qanunsuz əməllərinə görə AŞ PA-da səsvermə hüququndan məhrum edilib. Bu, qurumun bir ölkəyə tətbiq edəcəyi sərt tədbirlərdən hesab edilir. Biz Rusiyanın AŞ PA üzvlüyündən məhrum edilməsini də gündəmə gətirə bilərik. Ancaq praktika göstərir ki, bu, münaqişənin nizamlanması üçün effektiv addım deyil. Biz reallıqda daha ciddi nəticələr verən qərarlar haqqında düşünməliyik. Bu haqda dəfələrlə deyilib. İnanıram ki, bütün münaqişələr, o sıradan Rusiyanın Ukraynaya hərbi təcavüzü hərbi deyil, siyasi yolla nizamlanmalıdır. Bunun üçün dialoq vacib sayıram”.

**Daha sonra Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov çıxış edib:** “Hesab edirəm ki, AŞ PA günümüzdə olan bütün problemli məsələlərə operativ reaksiya verməlidir. O sıradan Qarabağ probleminə. Bu münaqişə hər gün qurbanlar alır. Dondurulmuş münaqişələrin təhlükəli tərəfi həm də odur ki, həll yolu tapılmadığı üçün insanlar bundan daha çox əziyyət çəkirlər. Mən sizə erməni əsgərin şəklini göstərmək istəyirəm. O, əlində ağ bayraqla Azərbaycan tərəfə təslim olur. Bu, Ermənistan əsgərlərinin münaqişə aparmaq istəmədiyinin göstəricisidir. Bu həm də o deməkdir ki, ermənilər heç zaman onların olmayan torpaqlarda vuruşmaq istəmirlər. Ancaq Ermənistan rəhbərliyi bütün vasitələrlə münaqişənin nizamlanmasını yubadır. AŞ PA Ermənistana münaqişəni bitirmək üçün düzgün qərarlar verməkdə yardımçı olmalı, bu məsələni davamlı olaraq gündəmdə saxlamalıdır”.

**Azərbaycan nümayəndə heyətinin digər üzvü Qənirə Paşayeva da Qarabağ məsələsindən danışıb, diqqəti Ermənistanın əsir aldığı Azərbaycan vətəndaşlarına yönəldib:** “Hər gün Ermənistan tərəf Azərbaycan ordusunun mövqeləri ilə yanaşı, dinc Azərbaycan əhalisini də atəş altında saxlayır. Ermənistanın işğalçı siyasətinə görə yüz minlərlə insan öz torpağına dönə bilmir. Ən acınacaqlısı isə odur ki, bu gün Ermənistan Azərbaycan vətəndaşlarını əsir saxlayır. Bir neçə ay öncə baş verən bu fakt dəfələrlə beynəlxalq səviyyədə müzakirə edilib, ancaq Ermənistan əsirləri azad etməkdəm imtina edir. AŞ PA bu məsələni gündəliyə salmalı və bu, sənədlərlə təsdiq edilməli, çözüm yolu tapılmalıdır”.

**Ermənistanın AŞ PA-dakı təmsilçisi Nağdalyan xanım Brasörün Türkiyənin qaçqınlara sahib çıxmasına və Azərbaycan təmsilçilərinin çıxışlarındakı fikirlərdən danışıb:** “Erməni soyqırımının 100 illiyinin qeyd edildiyi bugünlərdə Türkiyə özünü qaçqınların, insan haqlarının himayədarı kimi təqdim etməyə çalışır. Ancaq həmin dövlətin ərazisində ermənilərlə birlikdə digər xalqlar da soyqırıma məruz qalıb. İndi münaqişələrdən qurtulan insanlara sığınacaq verməklə Türkiyə tarixdə baş verənləri unutdura bilməz. Dağlıq Qarabağ münaqişəsi isə Azərbaycan tərəfinin provokasiyalarına görə həll edilmir. Biz məsələnin ATƏT-in Minsk Qrupu çərçivəsində nizamlanmasının tərəfdarıyıq. Bunun üçün Avropa strukturlarının Dağlıq Qarabağ hakimiyyəti ilə təmasları gücləndirilməlidir. AŞ PA sədri Ann Brasör də qısa zaman öncə Ermənistanda səfərdə olarkən bu məsələ haqqında danışılıb və təklif bəyənilib. Ona görə də biz AŞ PA-nı yeniqən münaqişənin üzərinə yağ tökməməyə çağırırıq”.

**Cari məsələlərin müzakirəsindən sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb.**

**❑ Aygün Muradxanlı, Strasburq**



## Parlamentarlar Rusiyanı İŞİD-lə eyniləşdirir






YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015



# Türkiyə deputatlığına azərbaycanlı namizəddən Bakıya çağırış

## İsa Yaşar Tezel: "Azərbaycan dövlətinin də bizim məsələmizə diqqət göstərməsini istəyirəm"; "Azərbaycan türkü olaraq Türkiyə Böyük Millət Məclisində Azərbaycanın səsi, dərdi olacağıq"

**Türkiyədə keçiriləcək parlament seçkilərində Milliyyətçi Hərəkat Partiyasından olan namizədlər İsa Yaşar Tezel və Səfər Qaraqoyunlu İqdıra səfər ediblər. Musavat.com xəbər verir ki, aprelin 20-də namizədləri İqdırın hava limanında 2500-ə yaxın maşın karvanı qarşılayıb. Qarşılama o qədər kütləvi olub ki, MHP-çi namizədlər hava limanından şəhər mərkəzinə 2 saata çata biliblər.**

MHP-nin yerli şöbəsinin qərargahının eyvanından İsa Yaşar Tezel və Səfər Qaraqoyunlu toplaşanlar qarşısında çıxış ediblər. MHP-çi namizədləri qarşılamağa Qarsın bələdiyyə başçısı Murtəza Qaraçanta da gedib. İsa Yaşar Tezel çıxışında bildirib ki, Türkiyə üzərində oyunlar gedir. O bəyan edib ki, erməni diasporu İqdırda deputat seçkilərinə müdaxilə etmək istəyir: "AKP, CHP və HDP-nin erməni namizədləri var. Türk düşmənliyi aparan erməni diasporunun adamlarını niyə namizəd irəli sürürsünüz? Hanı Azərbaycanla qardaşlıq, hanı iki dövlət bir millətlik? Xocalıda soyqırım törədən ermənilərə xidmət edənləri partiyalarınızdan namizəd edirsiniz. İqdırlılar erməni diasporunun oyununu pozacaq".

İqdır təkcə Türkiyə üçün deyil, Azərbaycan üçün də strateji əhəmiyyətli bölgədir. Azərbaycan türklərinin də yaşadığı bu ərazidən bir Azərbaycan türkünün, xüsusilə də İsa Yaşar kimi Azərbaycan sevdalısının millət vəkili seçilməsi dövlətimizin maraqları baxımından çox faydalı olardı. "Yeni Müsavat"a müsahibəsində İsa Yaşar bəy də dövlətimiz və millətimizdən dəstək istəyini gizlətmədi. Yeri gəlmişkən, gərgin seçki kampaniyasının gedişində bir neçə dəfə oğlu Fateh bəylə danışa bilsək də, İsa bəylə yalnız görüşlərarası fasilələrin birində əlaqə saxlamaq imkanımız oldu. Onu da qeyd edək ki, İqdırdakı azərbaycanlılar İsa bəyin şəxsində azərbaycanlı namizədə sevə-sevə qucaq açırlar.

***– İsa bəy, seçki kampaniyanızı izləyirik, sonuncu çıxışınızda ermənilərə dəstək verənlərə sərt ismarışınızı da oxuduq. Hazırda durum necədir? CHP sizə problem yarada bilərmi?***

- Seçicilərdən çox yüksək səviyyədə rəğbət və məhəbbət görürəm. CHP-nin ötən dəfəki seçkidə aldığı səslərin sayı 1300 olub. Biz orda seçkini 27 500 səslə udmuşuq. Yəni burda türklər CHP-yə səs vermir. Sadəcə, onlar azərbaycanlıların səslərini bölməyə çalışırlar. Bu da AKP-nin işinə yarayır. Orda AKP-nin səsləri yüksək olarsa, bu vəziyyətdən faydalanar. CHP-nin seçkini udması üçün 20 dəfə artıq səs alması lazımdır. Bu, mümkün deyil.

***– Deməli, MHP-nin səslərini bölmək üçün Azərbaycan türkü Adil Aşırımın namizədliyinin CHP tərəfindən irəli sürülməsi Azərbaycan türklərinin səslərinin bölünməsinə hesablanıb...***

- Təbii. CHP-nin udmaq ehtimalı yoxdur. Dediyim kimi, bu partiya ötən seçkidə 1300 səs alıb. İndi onların seçkini udmaq şansı yoxdur, ancaq bizim səslərimizə problem yarada bilərlər.

***– İqdırdakı azərbaycanlıların sizə dəstək olduğuna şübhəmiz yoxdur. Bəs Azərbaycan dövlətindən, hökumətindən gözləntiniz nədir?***





- Təbii ki, biz seçiləcəyiksə, Türkiyə Cümhuriyyətinin deputatı olacağıq. Ancaq Azərbaycan türkü olaraq Türkiyə Böyük Millət Məclisində Azərbaycanın səsi, dərdinin tərcümanı olacağıq, Azərbaycanın bütün problemlərini gündəmə gətirəcəyik, erməni, Qarabağ məsələsi üçün çalışacağıq. Həmçinin beynəlxalq səviyyədə Azərbaycana yaradılan problemləri dəf etmək üçün fəaliyyət göstərəcəyik. Azərbaycan bundan fəxr etməli, sevinməlidir ki, Azərbaycanı sevən belə bir namizəd inşallah parlamentə düşəcək. Mən Azərbaycan dövlətinin də bizim məsələmizə diqqət göstərməsini istəyirəm. Azərbaycan xalqının da bizə mənəvi dəstək verəcəyini gözləyirəm. Təbii ki, Azərbaycan dövləti burdakı seçkilərə müdaxilə edə bilməz. Amma hər halda, buraya diqqət etməlidir. Çünki Türkiyə parlamentinə düşəcək erməni deputatlara qarşı duran yeganə səs MHP namizədi olacaq. Orda ermənilərin qarşısına çıxacaq, sözünü deyəcək bir deputat lazımdır. Ermənilər İstanbuldan iddialıdırlar; 5 erməni namizəd var. Onlar parlamentə düşə bilər. Təkcə MHP bir partiya olaraq erməni namizədlərlə seçkiyə qatılmayıb, çünki bizim üçün Azərbaycan var. Bu faktın özü də bizim üçün şərəfdir təbii ki.

***– İsa bəy, ötən dönəmlərdə İqdırın millət vəkili olmuş Sinan Oğanla münasibətləriniz necədir?***

- Yaxşıdır, telefon açdı, məni təbrik etdi. Bu gün iki Azərbaycan türkü İqdırdan parlamentə keçmək istəyir, durumumuz bu...

Qeyd edək ki, Azərbaycanda yaxından tanınan, hazırda millət vəkil olan soydaşımız Atilla Kaya İstanbuldan deputatlığa namizəddir. Həm onun, həm də İsa Yaşar Tezelin millət vəkil seçiləcəyi real görünür.

❑ **Elşad PAŞASOY**

# DYP rəsmisi ödənilməyən cərimələrdən danışdı

## **Kamran Əliyev:** "Təkcə fiziki şəxslərlə bağlı deyil, hüquqi şəxslərlə bağlı da müvafiq göstəriş verilib"



Kamran Əliyev

**Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında ödənilməyən cərimələrlə bağlı müvafiq tapşırıqlar verilib. Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev "Yeni Müsavat"ın sorğusuna cavab olaraq cərimələrin ödənilməməsinin səbəbinə aydınlıq gətirib. Şöbə rəisi ödənilməyən cərimələrin ümumilikdə 11 milyon manat olması haqda yayılan məlumatların real olmadığını da deyib: "Kollegiya iclasında ödənilməyən cərimə məbləğlərinin ödətdirilməsinin təmin olunması ilə bağlı müvafiq tapşırıq verilib. Ödənməyən cərimə borcları 2 formadadır. Konkret qayda pozuntusu ilə bağlı elektron protokol yazılır, protokolda müvafiq cərimə məbləği də göstərilir. Amma müvafiq qərar çıxarılmayıb. Qərarın çıxarılmaması faktiki olaraq protokolun vətəndaşa təqdim edilməməsi ilə bağlı olur. Belədə qərar vermək mümkün olmur və müvafiq olaraq cərimənin ödənməsi də reallaşdırılmır. Belə hallar da var ki, protokol yazılıb, qərar çıxarılıb, amma vətəndaş cəriməni ödəməyib. Ödənməyən cərimənin üzərinə dəbbə pulu da gəlir. Qərar çıxarılıbsa, vətəndaş həmin cəriməni ödəməlidir. Üstündən illər keçsə də, cərimə borc olaraq qalır. İnzibati xəta aşkarlanıbsa, protokolu vətəndaşa təqdim etmək mümkün olmayıbsa və müvafiq olaraq qərar çıxarılmayıbsa, həmin məbləğ də cərimə kimi hesaba alına bilər". K.Əliyev deyib ki, əgər vətəndaşı 1 il ərzində müəyyən edib protokolu ona təqdim etmək mümkün olmursa, bu halda inzibati xətaya xitam verilir: "Əgər protokol vətəndaşa təqdim olunursa və 10 gün müddətində cərimə ödənilmirsə, cərimənin üzərinə dəbbə pulu gəlir. 2 ay müddətinə cərimə ödənilmirsə, avtomobilin saxlanılaraq duracağa aparılması təmin edilir. 3 aya cərimə ödənilmirsə, vətəndaşın sürücülük hüququ məhdudlaşdırılır".**

K.Əliyev deyib ki, təkcə fiziki şəxslərlə bağlı deyil, hüquqi şəxslərlə bağlı da müvafiq göstəriş verilib: "Cənab nazir fiziki və ya hüquqi şəxs olmasından asılı olmayaraq əgər qayda pozubsa, məsuliyyətə cəlb olunması və çıxarılan qərar üzrə cərimənin ödənməsinin təmin edilməsi haqda göstəriş verib".

Qeyd edək ki, aprelin 16-da Daxili İşlər Nazirliyində "Vətəndaşların şəxsiyyət vəsiqələri ilə təmin edilməsi"nin və "I Avropa Oyunları ilə əlaqədar ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və texniki vasitələrlə təminat sahəsində görülən işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Basdırmaq üçün özümlə üç mina gətirmişdim"

## Ağdamda tutulan erməni kəşfiyyatçısı: "Xüsusi təlim keçmişəm və..."

**Aprelin 20-də Gəncə Ağır Cinayətlər Məhkəməsində ötən il dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində qoşunların təmas xəttini keçən erməni kəşfiyyatçı Arsen Eduardoviç Baqdasaryanın cinayət işi üzrə məhkəmə baxışı davam etdirilib. APA TV-nin qərb bürosunun məlumatına görə, hakim Elbəy Allahverdiyevin sədrlik etdiyi prosesdə zərərçəkənlər və şahidlər ifadə verib. Arsen Baqdasaryan məhkəmədə verdiyi ifadəsində Azərbaycan hərbçiləri tərəfindən saxlanılan zaman öncə özünü Vazgen Qriqoryan kimi təqdim etdiyini deyib. O, üzərində üç mina və onları basdırmaq üçün bıçaq olduğunu bildirib.**

Baş çavuş olduğunu deyən Arsen Baqdasaryan həmin minaları basdırmaq barədə komandirindən tapşırıq aldığını açıqlayıb: "Komandirin göstərişi ilə ərazini seçərək minalamaq əmri verildi. Post isə özümüz tərəfindən seçilmişdi. Vaxtı vədələşdik. Dedik ki, vədələşdiyimiz vaxtdan 5 dəqiqə keçsə, deməli, kimsə əsir düşüb. Mən baş çavuş olduğum üçün komandirə məlumat verməli idim. Mülki geyimdə, cibimdə qəpik pullarla gəldim ki, əsir düşsəm, guya sakin olduğumu deyim. Ona görə də silahsız gəldim. Xüsusi təlim keçmişəm və bu səbəbdən özümü Vazgen Qriqoryan kimi təqdim etmişəm". O, həmçinin saxlanılan zaman Azərbaycan hərbçiləri tərəfindən zorakılığa məruz qalmadığını, hətta ona çay verildiyini də deyib. Proses aprelin 27-də davam etdiriləcək. Qeyd edək ki, ermənilərin kəşfiyyat-təxribat qrupunun üzvü olan peşəkar hərbi qulluqçu Arsen Baqdasaryan ötən il dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində qoşunların təmas xəttini keçmək istəyərkən Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının sayıqlığı nəticəsində yaxalanıb və hüquq-mühafizə orqanlarına təhvil verilib. Hazırda Respublika Hərbi Prokurorluğunda cinayətkar birliyin digər üzvləri barəsində cinayət işi ayrılmaqla, ibtidai istintaq davam etdirilir.



Arsen Baqdasaryan

YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015

# Problemlər içində boğulan Azərbaycan gəncliyi

**Ümid Partiyasının mərkəzi qərargahında partiyanın gənclər şöbəsinin təşkilatçılığı ilə "Ümid Partiyasinin gənclər siyasəti" mövzusunda dəyirmi masa keçirilib.**

Mövzu ilə bağlı gənclər şöbəsinin müdiri Paşa Çıraqov məruzə ilə çıxış edib. Sonra partiya Ali Məclisin sədri Rəfail Tağızadə, Ali Məclis sədrinin müavini Tamilla Məmmədova, gender bərabərliyi şöbəsinin sədri Həcər Abbaslı, humanitar şöbənin müdiri Günel İbadova, analitik təhlil və siyasi proqnozlaşdıma üzrə şöbə müdiri Fəxrəddin Abdullayev və digərləri mövzu ətrafında çıxış ediblər və müzakirələr aparılıb. Gender bərabərliyi şöbəsinin müdiri Paşa Çıraqovun çıxışını ixtisarla oxuculara təqdim edirik:

- Azərbaycan hakimiyyəti ölkənin daha da güclənməsi üçün gəncliyin əsas amillərdən biri olduğunu vurğulayır, gəncliyin parlaq gələcəyindən, dövlətin gəncliyə qayğısından ağız dolusu danışır.

Deyilənlər reallığı əks etdirirmi?

Ölkənin gələcəyi hesab olunan gənclərimizin çoxlu problemləri var. Gənclərin problemləri cəmiyyətdə mövcud olan sosial-iqtisadi problemlərinin tərkib hissədir. Həyatın hər sahəsində - məişətdə, təhsildə, səhiyyədə, əmək fəaliyyətində eləcə də fərqli düşüncəyə görə ayrı-seçkilik və s. problemlər intellektual gəncliyin yetişməsinə imkan vermir. Mövcud problemlər üzündən xaricə gedən gənclərin sayı ilbəil atmaqdadır. Ümumiyyətlə, gəncliyin güclü potensialı boğulur. Demək olar ki, onlar xəyal qırıqlığına uğrayırlar.

Gəncliyə zamanında sahib çıxmaq lazımdır. Müəllim və elm adamlarının diqqətdən kənar qalması, əməkhaqqılarının az olması elmə təhsilə olan marağı azaldır. Bu səbəbdən elm və təhsilə xüsusi diqqət ayrılmalıdır. İlbəil orta ixtisas və ali məktəblərə qəbul ballarının aşağı salınması da təsilimizdə olan ciddi problemlərdən xəbər verir. Gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, ictimai-siyasi proseslərə cəlb olunması üçün şərait yaradılmalıdır. Elmi potensiala və qabiliyyətə gerçək qiymət verilməlidir. Yalnız bu halda gənclik, ölkənin demokratik inkişafına ciddi töhfələr verə bilər.







Hesab edirəm ki, bu sahədə Ümid Partiyasının etdiyi təkliflər mükəmməldir. Partiyanın təhsil proqramında nəzərdə tutulur ki, orta məktəblərdə tədris planı müasir dövrün tələblərinə, şərtlərinə, ehtiyaclarına, dünyəvi təhsil bazasına uyğun yenidən yaradılmalıdır. Təhsil Nazirliyi nəzarətedici, təşkiledici və standart formalaşdıran bir mövqeyə gətirilməlidir. 9 illik məcburi təhsil sistemi yaradılmalı, hər bir vətəndaşın dövlət hesabına məcburi təhsil alması təmin edilməlidir. Uzunmüddətli təhsil islahatı konsepsiyası nəticəsində məcburi təhsil növbəti 10 ildə 11 illik tam təhsillə əvəzlənməli, məcburi təhsil dövlət tərəfindən pulsuz olaraq həyata keçirilməli, məktəblərin təhsil keyfiyyəti, texnoloji imkanları artırılmalı, azad düşünmə, analiz vərdişi, iştirakçılıq, müstəqil qərar vermə və çıxarma qabiliyyətini təşviq edən, cəmiyyət və toplum dəyərlərini aşılayan, vətəndaş və insan olma şüurunu yüksəldən, müasir inkişaf və texnologiyaları öyrədən bir təhsil sisteminə keçilməlidir. Bunun üçün demokratik və inkişaf etmiş ölkələrin təcrübələrindən yararlanmalı, müəllim yetişdirən universitetlər bu sistemə görə yenidən təşkilatlandırılmalı və mövcud müəllimlər yeni sistemə uyğunlaşdırılmalıdırlar.

Orta məktəb müəllimlərinin maaşı tam ştatla *(24saat = 504)* minimum istehlak zənbilinin 3 mislinə bərabər olamalıdır.

Gənclərin, əsasən də gənc ailələrin ipoteka ilə bağlı mövcud problemləri hər kəsə məlumdur. Ölkədə kifayət qədər evsiz yeni evli cütlüklər var. Və onların hamısını tək bir problem narahat edir. Ev sahibi ola bilməmək... Halbuki millət vəkili İqbal Ağazadənin məhz bu problemlə əlaqədar ortaya qoyduğu mövqe təqdirəlayiqdir. Deputatın fikrincə, hazırda ipoteka üçün 50 milyon manat ayrılır. Amma bu ipotekanı maaşı yüksək olanlar ala bilirlər. Mənzil şəraiti pis olan, aşağı maaşlılar ala bilmirlər. Onun sözlərinə görə, heç 50 min manata bu gün Bakıda ev almaq mümkün deyil. Faiz şərtləri yumşaldılmalıdır. Gənclər şəhərciyi tikilməli, ayda 160 manat olmaqla 100 kvadratmetrlik mənzilin pulu 25 ilə ödənməlidir.

Qeyd etdiyim kimi, gənclərin ən ciddi problemlərindən biri də işsizlikdir. Çox zaman gənclər müstəqil şəkildə iş qurmaq istəyirlər. Onların ilkin kapitalının, iş təcrübəsinin olmaması bunu əngəlləyir. Hesab edirəm ki, bu səbəbdən gənclər üçün xüsusi kurslar təşkil olunmalı, onlara iş qurmağın yolları, istiqamətləri öyrədilməli, bundan başqa peşə kurslarına cəlb edilməlidirlər. Sahibkarlıqla məşğul olmaq istəyən gənclərə uzunmüddətli və güzəştli kreditlər verilməli, vergi və dövlət rüsumlarında güzəştlər tətbiq edilməlidir.

Azərbaycan gəncliyi bu gününün və gələcəyinin gerçək sahibi olmaq arzusu ilə yaşayır! Biz yeraltı-yerüstü sərvətlərindən faydalanmaq və öz bacarığımızı Azərbaycanın inkişafına sərf etmək istəyirik!

Mövcud problemləri aradan qaldırmaq üçün gənclərin özünün aktivliyi bəs etmir, dediyim kimi, gənclərə sözdə deyil, əməldə dövlət qayğısı, münbit şərait lazımdır.

# Ümid fəalının 60 yaşı tamam oldu



***Aprelin 21-də Ümid Partiyası Xətai rayon şöbəsinin fəal üzvü Hüseyn Həsən oğlunun 60 yaşı tamam olur. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Hüseyn bəyi yubiley münasibətilə təbrik edib.***

***Təbrikdə deyilir:***

***Hörmətli Hüseyn Həsən oğlu!***

***Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm! Hər şeydən öncə Sizə Uca Tanrıdan cansağlığı, mənalı ömür, firavan həyat arzulayıram.***

***Siz Xalq hərəkatının fəal iştirakçılarından olmusunuz. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda fədakarlıqla mübarizə aparmışınız. Hazırda da ictimai-siyasi proseslərin ön sırasındasınız. Ümid Partiyası Xətai Rayon təşkilatının fəal üzvü kimi hər zaman üzərinizə düşən məsuliyyəti ləyaqətlə yerinə yetirmişiniz. Əsil insana məxsus olan bir çox xüsusiyyətləriniz- dürüstlüyünüz, səmimiliyiniz, alicənablığınız və cəsarətinizlə əsil türk kişisi, dəyərli dost kimi Ümid ailəsinin hörmətini qazanmışınız.***

***Biz Ümid Partiyası olaraq, işğal olunmuş torpaqlarımızın azad olunması, dövlətimizin güclü, xalqımızın güzəranının yaxşılaşdırılması, ölkəmizdə ədalətli cəmiyyətin qurulması, demokratik idarəçilik prinsiplərinin hakim olması üçün çalışırıq. İnanırıq ki, xalqımızın böyük əksəriyyətinin arzu və istəyi olan bu ideyaları, birlikdə Ümid bayrağı altında gerçəkləşdirəcəyik. Çox şadam ki, bu yolda yorulmadan, usanmadan, gənclik eşqi ilə siz də çalışırsınız.***

***Hörmətli Hüseyn bəy, bir daha Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Uca Tanrıdan Sizə cansağlığı, uzun ömür və bütün işlərinizdə uğurlar arzulayıram!***

***Hörmətlə: İqbal Ağazadə,***
***Ümid Partiyasının sədri,***
***millət vəkili***



# "Azərbaycanda Gender Bərabərliyi" mövzusunda dəyirmi masa keçiriləcək

**21 aprel saat 12:00 da Ümid Partiyasının mərkəzi qərargahında partiyanın Gender Bərabərliyi şöbəsinin təşkilatçılığı ilə "Azərbaycanda Gender Bərabərliyi" mövzusunda dəyirmi masa keçiriləcək. Şöbənin müdiri Həcər Abbaslı mövzu ilə bağlı məruzə ilə çıxış edəcək.**

Bu barədə partiyanın mətbuat xidmətinə Həcər Abbaslının özü məlumat verib.

"Gender bərabərliyinin təmin olunması dünyanın bir çox ölkəsində aktual problemlər sırasında durur. Problemin get-gedə daha ciddi xarakter alması isə sosial-iqtisadi tərəqqiyə mane olur, insan kapitalının inkişafında mövcud sistemin səmərəliliyini aşağı salır və nəhayət, cəmiyyətdə sosial ədalətsizliyin dərinləşməsinə gətirib çıxarır. Hətta Avropada kişi və qadın bərabərliyinin siyasi prioritetə çevrilməsinə baxmayaraq, bu sahədə irəliləyiş çox zəifdir. Qadınlar kişilərlə eyni hüquqlara malik olsalar da, kişilərə təklif olunan imkanlar qadınlar üçün eyni dərəcədə deyil və onların hüquqlarını tələb etmələri çox vaxt uğursuzluqla nəticələnir"- deyə şöbə müdiri bildirib.

Qeyd edək ki, Ümid Partiyası bir neçə aydır ki, ardıcıl olaraq hər həftə müxtəlif mövzularda dəyirmi masalar keçirir. Mövzular əvvəlcədən İcra Aparatının hər həftə keçirilən yığıncağında şöbə müdirləri tərəfindən kollegial şəkildə müzakirə olunur.

**İştirak arzusunda olan hər kəs dəvətlidir.**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

# Ayravana, ayravana, çandrika



Zamin HACI
zaminhaci@gmail.com

**Bizim İstanbul konsulu sarıdan həmişə bəxtimiz gətiribdir. Lap qədim zamanlarda bilmirəm bu vəzifəni kim daşıyıb, amma İbrahim Nəbioğlu yadımızda çox yaxşı qalmışdır. İbrahim müəllim xalqımızı iki qitənin qovuşacağında çox ləyaqətlə qovuşdururdu, təmsil edirdi, günaşırı bir zənən xeylağı "Konsulunuz məni çimdiklədi" mövzusunda, türkün məsəli, basın açıqlaması verirdi. Yəni o hər bir xaricə çıxan azərbaycanlı erkəyə verilən ümummilli sual ki var ("bir şey, mir şey oldumu"), İbo abi onu tam doğruldurdu, yüksək əzmkarlıq göstərirdi. İndi Elmar müəllimin canı dincdir, İbonun ardıyca gəzib aliment..., üzr istəyirəm, təkzib vermir.**

Hazırkı İstanbul baş konsulumuz Həsən Zeynalov isə bundan qabaq Qarsda konsul idi. Ancaq bilmirəm nə sirri-xudadır, mən bu müəllimi ancaq Naxçıvanın Bakı konsulu (daimi nümayəndəliyin şefi) kimi görürəm. Yəni Həsən müəllimin həmin vəzifəni daşımağından bəlkə bir əsr keçmişdir, hətta onu indi aparıb BMT sədri qoysalar da mən ancaq Naxçıvan konsulu kimi görürəm. Bu da mənim səhvimdir, neyləyək? Vurub öldürəsi deyilsiniz. Ölkəmizdə söz azadlığı var, yola verin getsin. Yeri gəlmişkən, belə dəyişməz təsəvvürlərimdən biri poçt qutusu ilə bağlıdır. Hər dəfə poçt idarəsi görəndə elə bilirəm içəridən Novruzəli çıxacaq. Dəhşətli şeydir. Allah kəssin belə həyatı. Mən yaşaya bilmirəm, çox çətindir.

Uzun sözün qısası, bu konsulumuz Həsən müəllim təzəlikcə Türkiyə mediasına intervü verib, deyibdir: "Bir gündə İrəvana girərik". Açığı, Həsən müəllim Yerevan deyibdir, hesab edirəm bu da türk jurnalistin səhvidir, gərək şəhərin adını düz yazasan. Stepanakert yazan alçaqlar da var hətta indiyəcən! Sabir müəllimin dil qurupu özü qənim olsun belə manqurtlara. Misal üçün, mən bu yaxında işğal edilən Füzuli rayonundan bir fotoya baxdım, orda Köndələn çayının qırağındakı lövhədə çayın adı hələ də kiril əlifbasında qalmışdı. Təsəvvür edirsinizmi? Bizdə latın əlifbasına keçid qanunu 15 ildir verilibdir, lakin mənasız ermənilər lövhəni hələ də kirildə saxlayırlar. Ayıb olsun. Ölün yerə girin. Halbuki bizim pulumuz çoxdur, istəsək "Əhmədli" sözünü yeddi dəfə pozub latın qrafikada yazarıq. Biz bulvarın daşlarını ildə 10 dəfə söküb təzədən döşəyirik, ermənilər isə 22 ildir Ağdamın daşlarını söküb qurtara bilmir. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Mövzudan çox uzaqlaşmayaq, əlimizdə bu cür vacib iş var: İrəvana giririk. Mən bunu çox alqışlayıram, hətta Həsən müəllimlə birgə İrəvana girməyə hazıram. O orda konsul işləyər, mən də qəzet çıxararam. Siz də yığışın gəlin, əziz oxucular. Qabağı yaya gedir, İrəvan sərin yerdir.

Ancaq bu məsələdə bəzi texniki detalları dəqiqləşdirməyə ehtiyac var. Həsən müəllim İrəvana girməyimizin müddətini 1 gün qoyub, müdafiə naziri Zakir Həsənovun isə açıqlamalarında konkret vaxt göstərilmir. Eyni zamanda YAP-ın əsas simalarından Səyavuş Novruzov İrəvanı 3 günə alacağımızı bildirib. Həvəs olmadı axtarmağa, ola bilsin digər yapist yoldaşlar da başqa müddətlər göstərmişdir. Hesab edirəm ki, (Arif Hacılı demişkən) bu məsələdə dəqiq, konkret müddəti uca millətimizin bilməsi vacibdir. Yola çıxırıq, bəlkə birinin Bakıda toyu var, bir həftəyə qayıdıb eləməlidir? Özümüzlə neçə günlük ərzaq, soyutma toyuq, xiyar-pomidor götürməliyik? İrəvanı aldıq, sonra Basarkeçərə neçə saata keçməliyik? Göyçə gölünü alanda ona hasar çəkmək lazımdırmı?

Dövlətçilik işində, siyasi sabitlik şəraitində belə detallara, məqamlara önəm verilməlidir. Yoxsa baxırsan deputat Bəxtiyar Sadıqov çıxıb deyir ki, sovet dövründə elmi ateizmdən imtahan verirdim, qiymət almaq xatirinə Allahı dandım, imtahandan çıxanda Allahdan üzr istədim, dedim məni bağışla. Bir mənasız sovet universitetində qiymət almaq üçün Allahı danan adam indi bizim deputatımızdır. Halbuki mən fotojurnalist Əjdər bəyi tanıyırdım, SSRİ dövründə elmi ateizm fənninə etiraz edib 2 dəfə ali məktəbdən qovulmuşdu, son illərdə yetimçilik və kasıbçılıq içində öldü.

Əgər ədalət varsa, Əjdər indi o biri tərəfdə minimum konsul olmalıdır.

## ABŞ-la rəsmi Bakı arasında "atəşkəs" niyə pozuldu?




# Azərbaycan uğrunda savaş pik həddə

**Prezidentin köməkçisindən sensasion açıqlamalar:** "Bu gün Ukrayna uğrunda beynəlxalq güclər necə mübarizə aparırsa, strateji maraqlarını təmin etmək üçün də Azərbaycan uğrunda mübarizə gedir"; ABŞ-la korlanmış münasibətlərin kökündə "demokratik vəziyyət" kimi demoqogiyanın dayanmadığı aydın oldu...

**Azərbaycan hakimiyyəti ilə Ağ Ev administrasiyası arasında gərginlik yenidən artıb. ABŞ-ın Bakıdakı yeni səfiri Robert Sekuta Azərbaycan rəsmiləri ilə görüşlərində isti münasibətlərdən danışsa da, Vaşinqtonun siyasətini müəyyən edən qurumların, xüsusən Dövlət Departamentinin son bəyanatlarında bunun əksi görünür. Bir neçə gün əvvəl bir sıra insan haqları təşkilatları və keçmiş diplomatlar ABŞ dövlət katibi Con Kerriyə açıq məktub yazaraq insan haqlarını pozan Azərbaycan rəsmilərinə viza qadağası qoymağa, onların səhmlərini dondurmağa çağırıblar.**

Bunun ardınca Bakıda QHT rəhbəri Rəsul Cəfərov barədə məhkəmə hökmünə ABŞ Dövlət Departamenti kəskin reaksiya verib. Azərbaycan hökuməti də bu bəyanatı "ölkənin daxili işlərinə müdaxilə" adlandırıb. Rəsmi "Azərbaycan" qəzeti prezident Barak Obama və dövlət katibi Con Kerrini ermənipərəst mövqedə və Azərbaycanda sabitliyi pozmaq cəhdlərində ittiham edib.

ABŞ Dövlət Departamentinin mətbuat katibi Mari Xarf Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə qarışması barədə rəsmi Bakının ittihamına cavab verib: **"Biz də narahatlığımızı yetərincə aydın bəyan etmişik. Odur ki, ABŞ-ın ünvanına bu cür ittihamlar sadəcə olaraq Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyətdən diqqəti yayındırmaq cəhdidir. Biz insan hüquqlarına dair bəyanatımızda buna kifayət qədər açıq işarə etmişik".**

Müşahidəçilərə görə, rəsmi Vaşinqton adətən bu tip sərt xarakterli məqalələr barədə dərhal məlumatlandırılsa da, ilk dəfədir ki, bir qəzet məqaləsinə reaksiya bildirməsi münasibətlərdə gərginliyin artıq açıq söz savaşına keçməsi kimi də izah edilə bilər.

Son iki gündə də Amerikadan Azərbaycan hakimiyyətini kəskin narazı salan iki hadisə baş verib. "The New York Times" son sayında ABŞ-ın bir sıra tanınmış yazıçı və jurnalistlərinin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxa müraciətini dərc edib. Müraciət müəllifləri iyunda Bakıda keçiriləcək Avropa Oyunlarını nəzərə alaraq, Azərbaycandakı vəziyyətə diqqət ayırıb. Müraciətdə "Azərbaycandakı repressiv vəziyyətdən bəhs olunur" və hakimiyyət ciddi tənqid edilir. Aprelin 20-də mərkəzi qərargahı ABŞ-da olan "Human Rights Watch" beynəlxalq hüquq-müdafiə təşkilatı yeni bəyanatla çıxış edib. "Avropa liderləri aydın şəkildə bildirməlidir ki, hökuməti tənqid etdiyinə görə həbs olunmuş şəxslər buraxılmasa, hökumət müstəqil qruplara və fəallara təzyiqlərə son qoymasa, oyunların açılış mərasiminə yüksək səviyyəli nümayəndə heyətləri göndərilməyəcək" deyə, bəyanatda bildirilir. Yeri gəlmişkən, iqtidar mediası son saylarında bu təşkilatın Ağ Evin əlində alət olmasını iddia edən yazılar dərc edib. Yazılarda iddia olunur ki, "Human Right Watch"ın hesabatları Obama administrasiyası tərəfindən hazırlanır və bu qurum öz fəaliyyətini Dövlət Departamenti ilə ciddi koordinasiya edir. Beləliklə, bu informasiyalar ABŞ-la münasibətlərdə yeni gərginliyin yarandığını təsdiqləyir. Bəs səbəb nədir?

***

Prezident İlham Əliyev aprelin 10-da keçirdiyi müşavirədə Azərbaycanın dünya ölkələri ilə münasibətlərinə toxunaraq maraqlı açıqlamalar vermişdi. Məsələn, dövlət başçısı **"biz heç kimin təhriki ilə addımlar atmırıq, əgər o addımlar milli maraqlara uyğundursa, biz bunu edirik, deyilsə, biz bunu etmirik" deyərək qəti şəkildə "elə bir qüvvə yoxdur ki, bizi nəyəsə məcbur edə bilsin"** söyləmişdi. Prezidentin çıxışında daha bir mühüm məqama da diqqət yetirək. **"Bizim xarici siyasətimiz qüsursuzdur. Mən bunu açıq bəyan etmək istəyirəm. Biz heç bir ölkə ilə əlaqələrimizi pozmamışıq. Heç bir ölkə ilə bizim aramızda heç bir gərginlik yoxdur. Əksinə, son illər ərzində biz nə qədər dost qazanmışıq, nə qədər çox ölkələr bizimlə əməkdaşlıq etmək istəyir"** deyə, prezident vurğulamışdı. Dövlət başçısı ad çəkməsə də, güman etmək olar ki, "heç bir ölkə ilə bizim aramızda heç bir gərginlik yoxdur" dedikdə Amerika ilə münasibətlərə dair iddiaları nəzərdə tutur. Çünki son ilyarımda ən çox Bakı-Vaşinqton münasibətlərinin gərginləşməsi müşahidə edilir, hətta zaman-zaman bu gərginlik qarşılıqlı ittihamlarla açıq müstəviyə keçir.

**Prezidentin köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov ANS-ə sensasion sayıla biləcək açıqlamalar verib. Ə.Həsənov deyib ki, Azərbaycanın geosiyasi, geoiqtisadi və geostrateji dəyəri çox yüksəkdir:** "Azərbaycan Cənubi Qafqazın o ölkəsidir ki, Qara dəniz hövzəsində Ukraynanın oynadığı rolu oynayır. Bu gün Ukrayna uğrunda beynəlxalq güclər necə mübarizə aparırsa, Cənubi Qafqazda öz geosiyasi, geoiqtisadi və hər geostrateji maraqlarını təmin etmək üçün də Azərbaycan uğrunda mübarizə gedir". **Ə.Həsənovun "beynəlxalq güclər" dedikdə Rusiyanı və Qərbi nəzərdə tutduğu şübhəsizdir. Prezident köməkçisinin sonrakı fikirləri də bunu təsdiqləyir:** "Azərbaycanın hansı cəbhədə dayanacağı, hansı blokun yanında yer alacağı və hansı bloka qarşı istifadə ediləcəyi məsələsi beynəlxalq güclərin maraq cərcivəsindədir. Ermənistan və buna bənzər dövlətlərin geosiyasi dəyəri o qədər aşağıdır ki, onların kimin yanında durması, necə dayanması, hansı şəkildə idarə olunması, dövlətin özünün müstəqil iradəsinin olub-olmaması dünya üçün o qədər də maraq kəsb etmir. Təsəvvür edin ki, dünyanın yeganə alternativ enerji mənbəyi hardadır? Azərbaycandadır. Eləcə də dünyanın yeganə alternativ nəqliyyat kommunikasiya xətlərinin başlandığı, bitdiyi və əlaqələndirici ölkəsi haradır? Azərbaycandır. Dünyanın hərbi geostrateji mövqeyində mövcud dəyişiklik edə biləcək, yəni Xəzərə NATO-nun çıxışını təmin edəcək ölkə hansıdır? Azərbaycan. Bu gün NATO qoşunlarını Əfqanıstana daşıyan bütün hərbi dəhliz Azərbaycan üzərindən keçir. Azərbaycan günü sabah Xəzərin qapısını açıb NATO-nu ora buraxsa nə olacaq? Və yaxud da Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulub NATO-ya qarşı blokda yer alsa nə olacaq?"

"Məhz bütün bunlar əlbəttə beynəlxalq dairələri çox düşündürür" deyən iqtidar rəsmisi "ona görə də Azərbaycan balanslı siyasət yürüdür. Siyasətin təməlində isə Azərbaycan xalqının maraqları durur. Biz beynəlxalq aləmə baş salmağa çalışırıq ki, kiçik olmağımıza baxmayaraq, bizim də Amerika, Rusiya, İran, Türkiyə, və Avropa kimi öz maraqlarımız var" deyə bildirib.

**PA rəsmisi beynəlxalq islamafob qüvvələrin Azərbaycana qarşı cəbhə aldığını söyləyib:** "Yəni müsəlman dünyasında onların təqdim etdiyi kimi, həmişə xaos, anarxiya olmalıdır. Eyni zamanda insanlar bir-birini öldürməlidir. Gecə-gündüz partlayışlar olmalıdır - İraqda, Suriyada,Yəməndə, Misirdə, Liviyada baş verən proseslər bütün müsəlman dünyasına aid olunmalıdır. Nümunəvi modern müsəlman dünyası dünyada təqdir olunmamalıdır".

***

ABŞ dövlət katibinin müavini Viktoriya Nulandın Bakıya fevral səfərində nəhayət ki, bu cür ittihamlara son qoyacağı gözlənilirdi. Çünki Nuland Birləşmiş Ştatlarla Azərbaycan arasında yeni danışıqlar formatına dair ikitərəfli razılıq əldə olunduğunu açıqlamışdı. Amma fevral ayından ötən müddətdə iki tərəfli strukturun yaradılması barədə hər hansı məlumat yoxdur və münasibətlərdəki gərginlik səngimir. Azərbaycanı regionda strateji müttəfiqi hesab etdiyi ABŞ-ın bu cür soyuq münasibətinin kökündə "demokratik vəziyyət" kimi demoqogiyanın dayanmadığını ötən saylarımızda da qeyd etmişdik. Ə.Həsənov da bunu açıq şəkildə bəyan etməklə ilk dəfə Azərbaycan uğrunda Rusiya və Qərb dünyası arasında mübarizənin əsl səbəblərini açıqlamış oldu.

**Bəs niyə məhz indi?**

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015

**Azərbaycan hakimiyyəti ilə ABŞ arasındakı gərginliyin yenidən artması müşahidə edilir. Rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın bir neçə gün öncə yenə də ABŞ-ı və prezident Barak Obamanı sərt tənqid edən məqaləsinin dərc olunmasından bir gün sonra Dövlət Departamentinin sözçüsünün buna reaksiya verməsi isə münasibətlərin həqiqətən də gərginləşdiyi barədə iddiaların çoxalmasına səbəb olub.**




# Rəsmi dövlət qəzeti Obamanı niyə çox tənqid edir?

## Ekspert: "Obama aprelin 24-də İrəvana getməyəcək, Rusiya prezidenti isə gedəcək. "Azərbaycan" qəzeti Putinin bu səfərinə yazı həsr edəcəkmi?"

Ekspertlər bildirir ki, artıq ABŞ da Azərbaycan hakimiyyətinin ittihamlarını sükutla qarşılamaq istəmir. **"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** hesab edir ki, ABŞ-Azərbaycan iqtidarı münasibətlərində soyuqluq artsa da, vəziyyəti hələ pik həddə gərginlik kimi dəyərləndirmək yanlışdır: "Münasibətlərdə soyuqluq var. ABŞ Dövlət Departamentinin sözçüsünün "Azərbaycan" qəzetinin məlum yazısı dərc olunandan dərhal sonra açıqlama verməsi isə yeni mərhələnin başlanması sayıla bilər. Əvvəllər Azərbaycan iqtidarı açıq qapıya qol vururdu, qarşı tərəfdən isə cavablar gəlmirdi. Amma artıq Dövlət Departamentinin sözçüsünün son iki mətbuat konfransındakı açıqlamaları göstərir ki, bu, artıq ikitərəfli oyundur. İkitərəfli oyunda da tərəflər bir-birinə güzəştə getmək fikrində deyillər. Bunun hara qədər gedəcəyini söyləmək bir qədər çətin də olsa, ehtimal eləmək olar ki, bu tendensiya yaxşı nəticəyə aparmır. Sadəcə, anlaşılmayan bir şeydir ki, niyə indiki geosiyasi durumda, bu qədər çətinliklər yarandığı bir vaxtda ABŞ kimi dövlətlə bu cür münasibət müstəvisinə keçmək lazımdır. Bir qədər bu anlaşılmır. Burada adekvat bir siyasətin aparıldığı görünmür".

**Politoloq istisna etmir ki, Vaşinqtondan rəsmi Bakıya pərdəarxasında çox kəskin təzyiq və tələblər var. Azərbaycanın rəsmi mediasında ABŞ-a qarşı kəskin məqalələrin dərc olunması da bununla bağlıdır:** "Mən belə bir halın olmasını istisna etmirəm. Amma belə şeylər varsa, onun da cavabı başqa cür verilməlidir. Azərbaycan hakimiyyətinə üzdə görünməyən pərdəarxası təzyiqlər varsa, ona bu cür açıqlıqla cavab verməklə daha güclü görünür. Əksinə, bu, Azərbaycan tərəfini bir qədər gülünc vəziyyətə qoyur. Pərdəarxası təzyiqlər varsa, ona cavab verməkmi yaxşıdır, yoxsa bu cür isteriya yaradıb gülünc vəziyyətə düşməkmi? Mən başa düşmürəm ki, Azərbaycan iqtidarı nədən bu cür edir".

**Politoloq Qabil Hüseynli isə hesab edir ki, indi ABŞ-Azərbaycan münasibətləri bir qədər soyuyub və müəyyən qarşıdurma elementləri müşahidə olunur:** "Lakin indiki vaxtda ABŞ-ın Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcəyi inandırıcı deyil. Ən azından bu saat ABŞ-ın başı Rusiya ilə bağlı, İŞİD-lə bağlı problemlərə qarışıb. Belə bir şəraitdə regionun mühüm dövlətlərindən biri olan Azərbaycanla münasibətləri kökündən korlayacaq addım atmaq yerinə düşməzdi. Amerika Azərbaycanla münasibətləri düzəldəcək. Bu münasibətlərin düzəlməsi üçün lazım olan nə varsa hamısı ediləcək. Çünki Azərbaycan-ABŞ münasibətlərinin o qədər də uzaq olmayan keçmişi yaxın dostluq və strateji əməkdaşlıq tellərinə əsaslanırdı. İndi münasibətlər bir qədər soyuyub və müəyyən qarşıdurma elementləri müşahidə olunur. Amma bəzən bu, mediada həddən artıq şişirdilmiş şəkildə təqdim olunur. Mən güman edirəm ki, hər halda, Azərbaycan tərəfi də müəyyən kompromislər yolu seçməklə bu münasibətlərin normal məcraya yönəlməsinə çalışacaq. ABŞ tərəfi də sözsüz ki, Azərbaycanla münasibətlərin sanksiyalar tətbiqi səviyyəsinə qədər pisləşməsini istəməz".

**Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə "Azərbaycan" qəzetinin yenidən ABŞ-ı və prezident Barak Obamanı sərt tənqid etməsinə belə münasibət bildirib:** "Azərbaycan" qəzeti ABŞ prezidenti Barak Obamanı tənqid etməyi çox sevir. Bu, istənilən qəzetin müstəsna hüququdur, istənilən dövləti və siyasətçini tənqid edən səhifəlik yazılar dərc etmək mümkündür. Ancaq Barak Obama aprelin 24-də İrəvana getməyəcək, "soyqırım" abidəsinə gül-çiçək qoymayacaq. Rusiya prezidenti Vladimir Putin isə hər ikisini edəcək. "Azərbaycan" qəzeti Putinin bu səfərinə yazı həsr edəcəkmi? Ümumiyyətlə, bu qəzetdə Rusiyanın Ermənistandakı hərbi bazaları, Moskva ilə İrəvanın ortaq hərbi təlimlərinin kimə qarşı yönəlməsi barədə yazı oxuyacağıqmı?"

❑ **Etibar SEYİDAĞA**

# Vallah, yalan yeriyir...



**Hüseynbala SƏLİMOV**

**Doğrudanmı, sərvət bu qədər stimul yaratmaq iqtidarındadır? Adama elə gəlir ki, bu da yorucu olmalıdır... Bəli, topla, topla... Bunun da axırı olmalıdır axı!.. Eşidəndə də ki, bəli, bizim nümayəndələr Avropa Şurasının növbəti toplantısına yola düşürlər, bu, məndə doğrusu, ikili hiss yaratdı...**

Bir tərəfdən fikirləşdim ki, bu haqda bir şey yazaram. O biri tərəfdən də üzücü darıxqanlıq bürüdü məni, ürəyim elə sıxıldı ki...

Fikirləşdim ki, görəsən, mən indi, 50 yaşımda, tutaq ki, Avropa Şurasının növbəti toplantısına belə "mübarizə əzmi" ilə yollana bilərdimmi? "Hə" deyə bilmirəm...

Hətta bəzən mənə elə gəlir ki, əvvəlki enerji, əvvəlki həvəs artıq çoxdan tükənib, məsələn, məni daha heç kim məmur olmağa vadar edə bilməz, bu, daha mənlik deyil...

Amma baxıram bizim hakimiyyət adamlarına... "Məəttəl qalıram!" demək bu haqda heç nə demək olardı. Doğrudan da bu adamlarda enerji var...

Əgər onlar haqq işi uğrunda çarpışsaydılar bəlkə də bu, mənə o qədər də təəccüblü görünməzdi. Yox, bunlar öz "haqları" uğrunda vuruşurlar. Heç bu "haqqı" da onlara heç kim verməyib, 22 ildir ki, onu qamarlayıblar...

İnanıram ki, haqq işi uğrunda çarpışmaq və bunun əks-sədasını görmək adama stimul verə bilərdi...

Amma bunlar nəyə çalışır? Çalışdıqları budur ki, heç kim bu ölkənin qapılarını "demokratiya" sözü ilə döyməsin. Heç kim deməsin ki, Azərbaycanda siyasi məhbuslar var, halbuki onlar var və bir deyil, iki deyil, o qədərdir ki, bir siyahıya bəs edər... Amma yox, demək olmaz. Hətta demək lazımdır ki, Azərbaycanda heç məhbus yoxdur...

Demək olmaz ki, Azərbaycanda seçkilər saxtalaşdırılır. Qətiyyən demək olmaz! Demək lazımdır ki, dünyanın ən ədalətli, ən düzgün seçkiləri başqa bir yerdə yox, elə Azərbaycanda keçirilir...

Demək olmaz ki, Azərbaycanda insan haqları tapdanır. Yox, qətiyyən demək olmaz, əksinə, demək lazımdır ki, dünyanın bütün haqqı tapdananlar nicatlarını bu ölkədə tapırlar..

Qərəz, bizim deputatlar Strasburqa məhz bu "haqları", "həqiqətləri" müdafiə etməyə gedirlər. Müdafiə etmək nədir? Bəlkə də onlar bunun uğrunda ölməyə gedirlər!..

İndi keçək əsas məsələyə. Dedilər ki, orada rusiyalıların dondurulmuş mandatlarının məsələsinə baxacaqlar. Bizimkilər o vaxt rusiyalı deputatların mandatlarının dondurulmasının əleyhinə çıxmışdılar. Guya səbəbi də bu olmuşdu ki, deputatlarımız burada da sevimli mövzularının - "ikili standartlar" məsələsinin növbəti təzahürünü görmüşdülər!..

Guya bizimkilər rusların mandatının dondurulmasının ona görə əleyhinə olmuşdular ki, Avropa Şurası eyni sanksiyanı işğalçı Ermənistana qarşı tətbiq etməmişdi...

İnanırsınızmı?.. Doğrudanmı, bizimkilər məhz buna görə belə hərəkət etmişdilər? Kimi də inandırsalar, kimi də aldatsalar, məni aldada bilməzlər, bu, mümkün deyil. Onlar Rusiyaya ona xoş gəlmək üçün dəstək vermişdilər...

Əks təqdirdə, bunu necə başa düşmək olardı? Təsəvvür edin, haradasa ya zəlzələdən, ya da vəlvələdən, götürüb adam öldürmüş bir kəsi cəzalandırmayırlar. Növbəti dəfə yenə də adam öldürmüş bir kəsi cəzalandırmaq söhbəti ortaya gələndə siz də deyirsiniz ki, yox, mən buna səs verməyəcəm, çünki adam öldürmək cinayət deyil, ona görə ki, o dəfə siz adam öldürəni cəzalandırmadınız...

Düzdür, presedent məhkəməsi deyilən bir şey var. Adam çalışır ki, bunu məhz o məntiqdən başa düşməyə çalışsın. Amma yenə də absurd bir şey alınır. Bəli, o məsələni də qaldırmaq, qərar qəbul edənləri eyni tipli hadisələrə fərqli baxış nümayiş etdirdiklərinə görə qınamaq və ittiham etmək olardı. Amma bundan sonra, bunu bəyan edəndən sonra adam yenə də ədalətin tərəfində qərar tutar...

Amma bunlar nə edirlər? Guya ki, bir güllə ilə iki dovşan vururlar - bir tərəfdən Ermənistanı ittiham edir, o biri tərəfdən də Rusiyanın simpatiyasını qazanmağa cəhd edirlər...

Nə demək olar? Bəli, bunlar "siyasətçi"dirlər. Ən azı özləri belə hesab edirlər.

Təəssüf ki, elə başqa belə hesab edənlər də az deyil. Yoxsa 22 illik yalan ayaq tutardı, amma yeriməzdi. Amma baxıb görürsən ki, yeriyir... Özü də elə-belə yerimir, lap başını dik tutaraq, adamın gözünün içinə dik baxaraq yeriyir...

# AŞ PA-da Xocalı soyqırımının tanınması tələbi qaldırılacaq

## Fazil Mustafa: "Bizim nümayəndə heyətinin də hazırlığı var"



Fazil Mustafa

**Dünən Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yaz sessiyası başlayıb. Aprelin 24-dək Strasburqda keçiriləcək sessiyada Azərbaycanın AŞ PA-dakı daimi nümayəndə heyəti də iştirak edir. Nümayəndə heyətinə Səməd Seyidovun başçılıq edir. Heyətə deputatlardan Sevinc Fətəliyeva, Rövşən Rzayev, Elxan Süleymanov, Rafael Hüseynov, Qənirə Paşayeva, Aydın Abbasov, Sabir Hacıyev, Sahibə Qafarova və Fazil Mustafa daxildir.**

AŞ PA-nın yaz sessiyasında erməni-türk savaşı gözlənilir. Ermənilərin AŞ PA sessiyasına qondarma "soyqırım" məsələsi ilə bağlı sənəd çıxarmağa hazırlaşdığı barədə xəbərlər yayılıb. "Belə bir sənədin müzakirəyə çıxarılmasına qarşı Azərbaycan nümayəndə heyəti hansısa addımlar atacaqmı? Türkiyə nümayəndə heyəti ilə bu məsələdə birgə hərəkət etmək gözlənilirmi?" sualları ilə Azərbaycan nümayəndə heyətinin üzvü, deputat Fazil Mustafaya müraciət etdik. **Fazil Mustafa bildirdi ki, lazımi addımlar atılması nəzərdə tutulub:** "Əlbəttə, heç tərəddüdsüz Türkiyə ilə birlikdə koordinasiyalı addımlar atılacaq. Çünki bu həm də Azərbaycana qarşı yönələn bir məsələdir, ona görə də birlikdə mövqe ortaya qoymağa məhkumuq. 24 apreli də yəqin ki, gərgin mübahisələr içində keçirəcəyik. Ümid edirəm ki, nümayəndə heyətimiz Azərbaycanın maraqlarını layiqincə qoruya biləcəkdir. Təbii ki, bizim nümayəndə heyətinin də hazırlığı var və məqamı gələndə ortaya qoyulacaq. Xüsusilə Xocalı soyqırımının tanınması tələbi əsas arqument olaraq gündəmə gətiriləcək".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015



# Bizi gözləyən fəlakət

Azər RƏŞİDOĞLU

**Azərbaycanda güclü siyasi müstəvi mövcud deyil. Görünən budur ki, siyasi sistem çat verir. Güclü iqtidarın güclü müxalifəti olur. Azərbaycanda isə nə güclü müxalifət, nə güclü vətəndaş cəmiyyəti, nə də ki güclü mətbuat mövcuddur. İqtidar öz opponentlərini bütün resurslardan məhrum edib. Bu amil sağlam rəqabət imkanlarını aradan qaldırır.**

İctimai rəydə belə bir fikir mövcuddur ki, indiki şərtlər daxilində müxalifət mövcuddursa və etiraz edə bilirsə, bunun özü də fədakarlıq nümunəsidir.

Məsələ ondadır ki, siyasi qüvvənin fəaliyyəti xalqla birbaşa təmaslar əsasında dəyərləndirilir. Azərbaycan müxalifəti isə telekanallarda təbliğat aparmaqdan məhrumdur, yerli əhali ilə görüşlər, hətta öz partiya strukturlarında - regionlarda iclaslar keçirmək imkanından məhrumdur. Partiyalara simpatiyası olub, maliyyə dəstəyi vermək istəyən qüvvələr də bunu etməkdən çəkinirlər. Bütün bu sadalananlar acı bir gerçəklikdir. Lakin bütün günahı hakimiyyətin üzərinə yıxmaq da çıxış yolu deyil.

22 il müddətində eyni şəxslərin eyni təşkilata liderlik etməsi, 1993-cü ildən bəri keçirilən bütün seçkilərdə müxalifətin hər dəfə hüquqi baxımdan uduzması düşərgəni marginalaşdırır.

Əgər hansısa siyasi qüvvə öz liderinin hərəkətləri səbəbindən dəfələrlə məğlub olursa, bu o deməkdir ki, həmin siyasi qüvvənin liderliyində dəyişikliyə böyük ehtiyac var. Bu amil geniş ictimaiyyət tərəfindən də yaxşı başa düşülür. Amma bu dəyişiklik müşahidə edilmir. Ona görə də qarşıdan gələn parlament seçkilərində müxalifətin şansları hazırda çox aşağı dəyərləndirir. Bu deyilənlər heç də hakimiyyətin apardığı sərt siyasətə bəraət qazandırmaq məqsədi güdmür. Təbii ki, prosesdə hakimiyyətin rolu az deyil. Lakin partiya ardıcıl olaraq seçkilərdə məğlub olursa, deməli, idarəetmədə ciddi nöqsanlar var. Ona görə də belə bir rəy mövcuddur ki, müxalifətin bu liderlərlə irəliləməsi qeyri-mümkündür.

Müxalifətdə yeni dönəm başlanmalıdır. Yeni dönəmin başlanğıcını zəruri edən amil müxalifətin protest elektoratının ümidini doğrulda bilməməsidir.

Müxalifətsiz cəmiyyət mövcud ola bilməz.

Hətta totalitar rejimlərin mövcud olduğu ölkələrdə belə, ümumiyyətlə insan deyilən bir varlığın olduğu bütün ortamlarda müxalifətin mövcudluğu qaçılmazdır. Əks təqdirdə heç nə dəyişməzdi, hər şey olduğu kimi qalardı.

Söhbət müxalifətə öz mövcudiyyətini nümayiş etdirməyə maneçilik törədən demokratik ortamın yoxluğundan getmir. Söhbət müxalifətin, məhz, ağır durumundan gedir.

Əgər müxalifət cəmiyyətin müqavimət imkanlarını özünə qaytarmaq istəyirsə, mümkün qədər bir yerdə olmalıdır. Hətta qarşılıqlı öhdəlik olmadan əməkdaşlıq göstərmək mümkündür. Əməkdaşlıq yalnız müəyyən prinsiplər ətrafında qarşılıqlı öhdəlik götürməklə mümkün olur. Yəni "nə üçün, hansı məqsədlə və hansı üsullarla mübarizə aparmaq istəyirsən" sualı verilir və birlik modeli yaradılır.

Bu məsələnin nə qədər sadə olduğunu müxalifət partiyalarının rəhbərləri də bilməmiş deyil. Sadəcə bəzi müxalifət partiyaları ya indi, ya da ümumiyyətlə real əməkdaşlığı istəmir. Başlanğıc üçün strateji məsələlər müəyyənləşdirilməlidir ki, seçki kampaniyası dövründə müxalifət üçün həlledici olsun. Bu prosesin yekunu olaraq ictimaiyyətin inamını elə bərpa olunmalıdır ki, demokratik institutlar hakimiyyət dəyişikliyinə hazır olsunlar. Yalnız hakimiyyətin dəyişməsi yox, cəmiyyətin inamının bərpa olunması ona görə lazımdır ki, bu məqsəd demokratik institutların reanimasiyadan çıxmasına təsir edəcək. Bir sözlə, etirazçı elektoratı maksimum şəkildə fəallaşdırmaq lazımdır ki, siyasi güc mərkəzi yaransın və cəmiyyət öz rəyinin həlledici amilə malik olduğuna inansın. Əks təqdirdə, bizi fəlakət gözləyir.

Seçkilər zamanı vahid taktika və strategiyalar elan edilməlidir. Bütün hallarda indiki vəziyyət müxalifətin "ölmüş ayının dərisi uğrunda mübarizə aparması" təəssüratı doğurur. Çünki hər biri özünü daha güclü hesab edir. Elə bu cür hallara görə müxalifət qarşısına qoyduğu məqsədlərə nail ola bilmir və bunun nəticəsində administrativ-maliyyə imkanları olan hakimiyyətə şərait yaranır. Son 22 ildə biz bunu müşahidə etmişik. Növbəti 22 ildə eyni hadisələrin şahidi olmaq istəmirik...

# "Bir gündə Qarabağı da alarıq, İrəvana da girərik..."

Azərbaycanın İstanbuldakı baş konsulu Türkiyə mediasına danışdı; **Həsən Zeynalov:** "Torpaqları azad etmədən başıdik gəzə bilmərik, o ləkəni siləcəyik..."



"Ermənistanı əslində Türkiyə saxlayır. Ermənilərin Türkiyəyə vəfa borcu var. Xəyanətlərinə rəğmən, türk millətinin humanizmindən istifadə edib burada yaşaya bilirlər. Ancaq bu ermənilər heç olmasa, bir dəfə atılan iftiraları pislədilərmi? Mən eşitmədim"

**Azərbaycanın İstanbuldakı baş konsulu Həsən Zeynalov Türkiyədə çıxan "Yeniçağ" qəzetinə geniş müsahibə verib. Müsahibəsində "erməni genosidi", Xocalı soyqırımı, Qarabağın işğalı, ermənilərin türk xalqına qarşı bitməyən təxribatları mövzusundan danışan baş konsul yetərincə maraqlı, hadisə sayıla biləcək açıqlamalar verib.**

Ermənilərin "Ararat" adlandırıb öz gerblərində təsvir etdikləri, Türkiyəyə qarşı əsassız ərazi iddiasının simvolu sayılan Ağrı dağlarından, "Ermənistan" adlı dövlətin necə yaranmasından söz açan baş konsul deyib: "Ağrının o tayı bu tayı olmaz. Hər iki tərəfi türkündür. Ağrı dağının o tayında (Ermənistanda - red.) tarix boyu erməni yaşamayıb. Stalin və ondan öncəkilərin siyasəti nəticəsində həmin türk torpaqlarına ermənilər yerləşdirildi. Çünki Türkiyədən qorunmaq üçün bir millətə ehtiyacları var idi...

SSRİ dönəmində tarixi Azərbaycan torpaqlarında bir dövlət qurdular. Bu, o demək deyil ki, Ağrının o tayı Ermənistandır. İrəvanla mənim doğulduğum kəndin arası 40-50 km-dir. Uşaqlıqda vaxtımızın çoxu İrəvanda keçərdi. Orada tamamən Azərbaycan türkcəsində danışılardı. İndi artıq belə şey yoxdur, çünki türkləri bütünlüklə oradan çıxarıblar. Mənim həyat yoldaşımın ana babası İrəvandandır. 1948-ci ildə Stalinin əmri ilə deportasiya edilənlərdən idi".

Daha sonra jurnalist saxta soyqırım iddiaları məsələsində Azərbaycanın daim Türkiyənin yanında yer aldığını qeyd edir, Avropa Birliyinin Praqa sammitində Serj Sərkisyanın Türkiyəni ittiham edərkən prezident İlham Əliyevin ona sərt cavabı, "Sən burada Türkiyədən kimsə yoxdur deyə, arxayın danışırsan, amma mən burdayam" sözləri xatırlanır və Avropa Parlamentinin saxta soyqırım qərarına ən sərt təpkinin də məhz Azərbaycandan gəldiyi vurğulanır.

**Bakının təpkilərinə toxunan baş konsul "həqiqətən də 100 il öncə bir soyqırım olubsa, o zaman nədən demokratik Avropa, demokratik ABŞ bunu tanımaq üçün 100 il gözləməli idi", - deyə haqlı olaraq sual edir:** "Vatikan bunu indimi anladı? Onların əsl hədəfi bütün dünyaya hökmranlıq eləmək, ölkələri özlərinə tabe etdirməkdir. Avropa Parlamenti bütün Avropa ölkələrini 24 apreli "soyqırım" kimi tanımağa məcbur edir. Demokratiya budurmu? O ölkələrin öz iradələri yoxmu? Bunun ermənilərə də bir faydası yox. Çünki yeni bir qütbləşmə yaradır, dünya savaşına yol açır... Soyuq savaş tam bitdi deyə rahat olduq deyirkən özəlliklə İslam coğrafiyasında müsəlmanın müsəlmana qırdırıldığı qaynar, qanlı savaşlarda milyonlarla insan öldü. Bu etnik münaqişələri kim qızışdırır. İslam adına terror qruplarını kim yaradır, 1500 il sonra İslam dünyasına radikalyönlü yeni təriqətləri kim calayır?"

**Bu arada baş konsul Türkiyə-Ermənistan sərhədlərinin qeyd-şərtsiz açılmasını nəzərdə tutan Sürix protokollarını (2009) iki qardaş ölkənin arasını vurmağa hesablanmış bir tələ adlandırır və əlavə edir ki,** "Bu, antidemokratik, antiinsani qərar bir daha göstərdi ki, bizim tək çıxış yolumuz bir-birimizə sığınmağımızdır".

**Həsən Zeynalov türk toplumunun ifrat humanist olduğunu xüsusi qeyd edir:** "Əsl genosidi ermənilər 1905-1918-ci illərdə Azərbaycan türklərinə qarşı törədib. Sonrası nə oldu? Biz onları yenə qoynumuzda bəslədik. 1988-ci il olayları başlayanda yenə xəyanət etdilər. Türkiyə ermənilərə daha nə etməlidir ki? Hazırda 100 min miqrant erməni Türkiyədə işləyir. Ermənistanda cəmi 1.5 milyon adam var. Hər işçi orada üç nəfəri saxlayırsa, deməli, faktiki, Ermənistanı Türkiyə saxlayır. Ermənilərin Türkiyəyə vəfa borcu var. Xəncər vurmanıza rəğmən, türk millətinin humanistliyindən istifadə edib burada yaşaya bilirsiniz. Ancaq onlar heç olmasa, bir dəfə atılan iftiraları pislədilərmi? Mən eşitmədim.

Ermənistan konstitusiyasında da əksini tapdığı kimi, ermənilər Türkiyənin şərqi və cənub-şərqi əyalətlərini özlərinki sayırlar. Yəni düşmən bir davranış. Düşmənə sərhəd açılarmı? Hansı sərhədlərdən danışırlar? Tanımadıqları sərhədləri necə açacaqlar? Xalq sərhədlərin açılmasına izn verməz. O ki qaldı Ermənistanla hansı məsələni çözməyə, Ermənistanı qatillər, canilər idarə edir. Onların rəhbərlikdə olduğu müddətdə nəyi həll edəcəksiniz? Prezidenti, xarici işləri - hamısı cani, bizə qarşı qətliam yapanlardır..."

**XX əsrin gerçək soyqırım aktından danışan baş konsul deyib:** "Xocalı soyqırımının qanı hələ soyumayıb. BMT-nin 1948-ci ildə soyqırım qərarı var... Xocalıda yaşananlar o qərarın hər bir cümləsinə uyğun dəlir. BMT-nin Qarabağa dair 4 qətnaməsi mövcuddur. Bu sənədlər öz işlərinə yarayandamı tətbiq ediləcək? Azərbaycanın iqtisadi və hərbi gücü ortada. Biz ərazilərimizi işğaldan azad edə bilərik. Sadəcə, Azərbaycan qan tökülməsini istəmir. Yoxsa bir gündə Qarabağı da alarıq, İrəvana da girərik. Minsk Qrupu daim "savaş olmasın" deyir. Hər anlaşma ərəfəsində də Ermənistan mütləq bir təxribat edir. Daha səbrimiz qalmadı. Dövlətimiz də, xalqımız da çox gözlədi..."

"İşğal bitsin, oraya gedərik. Ayağım oralara dəysin, yetər. İnsan özünü günahkar sayır. Mənim torpaqlarım işğalda ikən mən başıdik gəzə bilmərəm. O ləkəni siləcəyik. Başqa yol yox. Bir qarış torpaq da Ermənistanda qala bilməz!", - deyə baş konsul fikrini tamamlayıb.

❑ Siyasət şöbəsi

"Ermənistanı qatillər, canilər idarə edir. Onların rəhbərlikdə olduğu müddətdə nəyi həll edəcəksiniz? Prezidenti, xarici işlər, müdafiə nazirləri - hamısı cani, bizə qarşı qətliam yapanlardır"




"Baş verənlər bir daha göstərdi ki, bizim tək çıxış yolumuz Türkiyə və Azərbaycanın bir-birinə sığınmasıdır"

"Hər anlaşma ərəfəsində Ermənistan mütləq bir təxribat edir. Səbrimiz qalmadı. Dövlətimiz də, xalqımız da çox gözlədi..."

"Sürix protokolları iki qardaş ölkənin arasını vurmağa hesablanmış bir tələ idi... Düşmənə sərhəd açılmaz"

# Polad Bülbüloğlu ittihamlara niyə cavab vermir...

## Söyün Sadıqovun Rusiyadakı səfirlə bağlı ittihamlarına XİN şərh verməkistəmir, səfirlik isə inadla susur

**Aprelin 14-də Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos"un növbədənkənar VI qurultayında yenidən sədr seçilən Söyün Sadıqov baş nazirin keçmiş müavini Abbas Abbasov və Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun ünvanına sərt ifadələr işlədib.**

S.Sadıqov deyib ki, onlarda olan məlumatlara əsasən A.Abbasov Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ilə "bir qayıqda" yer alır. S.Sadıqovun sözlərinə görə, 17 fevralda qurultaya Rusiya hüquq-mühafizə orqanlarının müdaxiləsi birbaşa P.Bülbüloğlunun informasiyaları əsasında baş verib: "Axı necə ola bilər ki, diasporun 350-400 nəfər üzvü Abbas Abbasova tabe olmadığı üçün səfirin göstərişi ilə təzyiqə məruz qalsınlar? Biz bu informasiyaya əvvəl inanmadıq.

Amma fevralın 20-də diasporun 100 fəal üzvü dağıstanlı qoluzorluların hücumuna məruz qalanda da səfir səsini çıxarmadı, hətta Dağıstan prezidentindən fəxri diplom da aldı. 14 aprel qurultayında isə rusiyalı məmurlarla söhbətdən bəlli olmuş oldu ki, səfir bütün gücü ilə qurultaya mane olmağa çalışıb. Azərbaycanlılar bilmək istəyir ki, səfir Polad Bülbüloğlu Rusiyada Azərbaycan prezidentini təmsil edir, yoxsa Abbas Abbasovun çirkin oyunlarının iştirakçısıdır?"



**Polad Bülbüloğlu**

Qeyd edək ki, Söyün Sadıqovun Azərbaycanın Rusiyadakı səfirini ittiham etməsinə Moskvadakı səfirlik tərəfindən hər hansı reaksiya verilməyib. Dəfələrlə cəhd etməyimizə baxmayaraq səfirlikdən və səfir Polad Bülbüloğlundan münasibət öyrənə bilmədik. **Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** "Yeni Müsavat"a açıqlamasında dedi ki, XİN ictimai qurum tərəfindən verilən açıqlamaları şərh etmir: **"Xarici İşlər Nazirliyi bu cür şayiə tipli açıqlamalara şərh vermir".**

Polad Bülbüloğlunun adı 2012-ci ildə Abbas Abbasovla çəkilib. Özü də həmin vaxt Polad Bülbüloğlu bu mövzuda təkzib də vermişdi. Məsələ burasındadır ki, 2012-ci ilin sentyabrında səfir Polad Bülbüloğlu da "Milyarderlər İttifaqı" - RATİ-nin təsis toplantısında iştirak edib xeyir-dua vermişdi. Ancaq sonradan məlum olanda ki, Bakı dan verilən sərt bəyanatlardan sonra P.Bülbüloğlu tam geri çəkildi. Həmin vaxtlar mətbuatda yazıldı ki, Rusiyadakı səfirin "Milyarderlər İttifaqı"nın hakimiyyət əleyhinə olduğundan öncədən xəbəri olmayıbmış.

Qeyd edək ki, yerli mətbuatda səfir Polad Bülbüloğluna qarşı Rusiyada ciddi iş aparıldığı və daha çox mədəni tədbirlərdə gündəmə gələn səfirin dəyişdirilməsi ilə bağlı fəaliyyətlər olduğu haqda yazılar dərc olunur. Ancaq o da bildirilir ki, P.Bülbüloğlunun Azərbaycan prezidenti ilə yaxın əlaqələri var və bu əlaqələrə güvənən səfir özünü çox rahat hiss edir, işdən çıxarılması və barəsindəki ittihamlara cavab verməyə ehtiyac duymur.

Yeri gəlmişkən, interpress.az saytı "AzerRos" təşkilatının saytının hələ də Abbas Abbasovun nəzarətində olduğu və Söyün Sadıqovun seçilməsi ilə bağlı xəbərlərin hələ də sayta yerləşdirilmədiyi haqda xəbər yayıb. Saytın xəbərində qeyd olunur ki, sayta qoyulan ən son yazılarda Söyün Sadıqov kəskin tənqid edilib və dağıdıcılıq fəaliyyətində ittiham olunub.

İnterpress.az-a daxil olan məlumata görə, Abbas Abbasovla Söyün Sadıqovun münasibətlərinin kəskinləşdiyi dövrdə təşkilatın saytına Abbasovun tərəfdarları nəzarət edib. Qurultaydan sonra da sayt yeni rəhbərliyə təhvil verilməyib. "AzerRos"un saytında daha əvvəl Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu barədə kəskin tənqidi yazı yayınlanmışdı.

❑ **KƏNAN**



# İcra başçısını töhmətləndirən binanın tikintisi davam edəcəkmi...

## Hələlik ərazidə bütün işlər dayandırılıb, amma "Lake Residence" MMC-nin sənədləşmə işlərinə başladığı deyilir

**"Neçə gündür ki, tikintini saxlayıblar. Gələn-gedən də yoxdur. Ancaq sahə elə əvvəlki kimi hasarlanıb qalıb. Əslində düz edib tikməyə icazə vermirlər. Bu ərazidə bina tikmək düzgün deyil. Çünki yan-yörəsi yaşayış binalarıdır. Yaxşı olar ki, burda sakinlər üçün baxça salınsın. Özün də görürsən ki, həyətyanı sahə kimi nəzərdə tutulub. Amma gəlib hasarlayıblar, qalıb belə. Yaxşı bir bina da tikilsə necə olacaq? Sıxlıq yaranacaq. İndi deyirlər ki, tikməyə icazə verilməyib, sənədi-sübutu yoxdur. Bundan sonra necə olacaq day bilmirəm".**





Bu sözləri bizimlə söhbətində Yasamal rayonu, 593-cü məhəllədə yaşayan sakinlərdən biri - Kamil dedi. O, Akim Abbasov küçəsi, 25 saylı ünvanda tikilən, prezidentin tapşırığından sonra dayandırılan tikinti barəsində danışarkən söylədi ki, bir də çətin inşasına icazə verilsin. Onun sözlərinə görə, bu nə sakinləri qane edir, nə də ictimailəşəndən sonra yenidən tikintini davam etdirmək inandırıcı görünür.

Kamil deyir ki, onların hansı şirkətin burada iş görməsindən xəbəri olmayıb. Müşahidələrimizə əsasən demək olar ki, böyük bir sahədir və gölün bir hissəsini qurudub işə başlayıblar. İndi gölün adı qalıb, yerində isə göydələnlər inşa olunub. Növbəti belə bir göydələni də "Lake Residence" MMC inşa etmək istəyib ki, sənədsiz olduğu üçün dayandırılıb. Üstəlik, Yasamal rayon icra başçısı İbrahim Mehdiyevə də töhmət verilib. Hazırda həmin ərazi istifadəsiz qalıb.

Ətrafdakı yaşayış kompleksinin pilləkənindən əraziyə giriş var. Lakin hasarı adlayıb keçmək lazımdır. Sakinlər qeyd edirlər ki, tikinti işləri davam etdirilsə uşaqların əyləncəsinə, yaşlıların istirahətinə yer qalmayacaq. Şirkətə gəlincə, barəsində nə rəsmi, nə qeyri-rəsmi məlumat var. İnternet resurslarında da bu adda firma haqda informasiya yerləşdirilməyib. Yalnız qış aylarında ərazidən çəkilmiş reklam xarakterli fotosuna rast gəlmək olar.

Axar.az-ın əldə etdiyi xəbərə görə, İ.Mehdiyevə verilən töhmətdən sonra "Lake Residence" MMC tikinti işlərini həyata keçirmək üçün icazə sənədi almağa çalışır. Sənədləşmə işləri müsbət həllini tapdıqdan sonra qurudulmuş gölün yerində abadlıq işləri görüləcək, park salınacaq, sakinlərin istirahəti üçün şərait yaradılacaq. Bu məsələlər artıq razılaşdırılıb. Yəqin ki, bina da tikiləcək.

Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən aparılan araşdırma zamanı "Lake Residence" MMC tərəfindən tikinti işlərinin aparılması üçün müvafiq icazə sənədi alınmadığı müəyyən edilib. Həmin ərazidə mövcud olan gölün bir hissəsinin tikinti qırıntıları ilə doldurulması həyata keçirilmişdi.

Bununla əlaqədar MMC rəhbərliyinə xəbərdarlıq edilmiş, orada aparılan qanunsuz tikinti işlərinin ləğv edilməsi, gölün doldurulmuş hissəsinin təmizlənməsi və ətrafda əhalinin istirahətinin mənalı təşkili üçün ərazidə yüksək səviyyədə abadlaşdırma işlərinin öz vəsaiti hesabına həyata keçirilməsi tapşırılmışdı.

Tikintiyə müvafiq icazə sənədi olmadan aparılan tikinti işlərinin qarşısının vaxtında alınmaması və bu istiqamətdə işlərin yüksək səviyyədə həyata keçirilməsində nöqsanlara yol verdiyinə görə Yasamalın icra başçısına da Bakı meri Hacıbala Abutalıbov tərəfindən töhmət verilmişdi.

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

# Cavid Qurbanovun bankından "Yeni Müsavat"a təhdid dolu zəng gəldi

## "Gəncəbank" haqda yazıya qurumun rəhbərliyi təhdidlə, hədə ilə cavab verdi

**Ötən saylarımızdan birində Bakı sakini Natalya Kərimovanın prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya, Rusiyanın Azərbaycandakı səfirinə, hüquq-mühafizə orqanlarının rəhbərlərinə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova və digər səlahiyyət sahiblərinə ünvanladığı və surətini vəkili vasitəsilə redaksiyamıza təqdim etdiyi məktubu dərc etmişdik.**








Məktub müəllifi "Gəncəbank"ın Müşahidə Şurasının sədri Pərvanə Novruzovanın onun biznesini, mülklərini zorakılıqla ələ keçirdiyini bildirir, səlahiyyət sahiblərindən imdad diləyirdi. "Cavid Qurbanovun bankının qadın rəhbəri haqda şok ittihamlar" sərlövhəli yazıda (http://musavat.com/news/olke/cavid-qurbanovun-bankinin-qadin-rehberi-haqda-shok-ittihamlar_260498.html-bu link vasitəsi ilə həmin yazı ilə tanış ola bilərsiniz) N.Kərimovanın yazdıqlarına istinadən qeyd edilir ki, P.Novruzovanın göstərişi ilə onu və qızını oğurlayaraq Gəncə ətrafında bir əraziyə aparıb zirzəmiyə salıblar və qızının zorlanması təhdidi ilə əmlaklarından imtina etməsinə nail olublar. N.Kərimovanın vəkili Ceyhun Yusifov "Yeni Müsavat"a açıqlamasında müvəkkilinin üzləşdiyi qanunsuzluqların araşdırılması üçün müvafiq dövlət orqanlarına müraciətlər etdiyini dedi. Bildirdi ki, baş verənlərlə bağlı Cinayət Məcəlləsinin 181-ci (quldurluq), 182-ci (hədə-qorxu ilə tələb etmə) maddələri ilə cinayət işi başlanmalıdır. Vəkil müvəkkilinin xüsusi qorumaya götürülərək "Gəncəbank" ASC-nin fəaliyyətinin kompleks yoxlanılmasının, bu halların araşdırılması məqsədilə xüsusi istintaq komissiyanın yaradılmasının vacib olduğunu vurğulamışdı. "Yeni Müsavat"ın əməkdaşı iddialara aydınlıq gətirmək üçün "Gəncəbank"la əlaqə saxlamış, bankın idarə heyətinin sədri vəzifəsini icra edən Elnur Həmidovla telefonla danışmışdı. E.Həmidov əməkdaşımıza bildirmişdi ki, P.Novruzova işə çıxmır. Bu səbəbdən də ona yönəlik ittihamlara cavab verə bilməyəcək.

Aprelin 20-də isə redaksiyamızla E.Həmidov özü telefon vasitəsilə əlaqə saxlayıb və mövzu ilə bağlı mövqelərini çatdırmaq istədiklərini bildirib. Düşünürdük ki, bank rəsmisi N.Kərimovanın müraciətində qeyd etdiyi "Nataşa" salonunun "Afroditaya" çevrilməsi; müraciət müəllifinin xüsusi mülkiyyətində olan mənzilin Pərvanə Novruzovanın mülkiyyətinə necə keçməsi; Kərimovanın ölkədən dərbədər salınana qədər yaşadığı mənzilin necə ələ keçirilməsi məsələlərinə aydınlıq gətirəcək. İlkin qeydiyyat sənədləri ilə Natalya Kərimova və onun ailə üzvlərinin adına olan mülkiyyətlərin idarə olunması və sənədlərin sonradan P.Novruzovanın adına necə keçməsindən danışacaq.

Bunun əvəzində E.Həmidov dəstəyi özünü təqdim etməyən şəxsə ötürdü. Həmin şəxs əməkdaşımızı hədələyib, təhdid edib. Bildirək ki, "Gəncəbank" haqda yazılanlar N.Kərimovanın iddialarıdır və o, bu iddiaların araşdırılması istəyi ilə ölkə rəhbərliyinə, bankın sahibləri arasında atası Qənbər Qurbanov olan Cavid Qurbanova da müraciət edib. "Yeni Müsavat"a həmin müraciətin surəti təqdim edilib və əməkdaşımız mövzu ilə bağlı P.Novruzovanın mövqeyini öyrənmək üçün "Gəncəbank"la əlaqə saxlayıb. Belə bir vəziyyətdə redaksiyamızın təhdid olunması N.Kərimovanın iddialarının təsdiqidir. Hədələrin real ola biləcəyini nəzərə alıb redaksiya rəhbərliyi hüquq-mühafizə orqanlarına müraciət hazırlayır.

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015



# Konstitusiya Məhkəməsi xalqı, yoxsa bankları müdafiə edəcək?

Ekspertlər bildirirlər ki, bankların qərardan öncə müəyyən lobbiçilik fəaliyyəti olacaq, həmçinin Konstitusiya Məhkəməsinin qərarının vətəndaşların xeyrinə olmayacağı ehtimalı böyükdür...

**İki ay əvvəl ölkədə baş verən kəskin devalvasiyadan sonra əhali kreditlə bağlı çaşqınlıq içərisindədir. Dollarla götürülən kreditlərin hansı məzənnə ilə ödəniləcəyi barədə uzun-uzadı müzakirələr aparılsa da, banklar krediti yeni məzənnə ilə tələb edir. İndi isə ümid Konstitusiya Məhkəməsinə qalıb. Məhkəmə mayın 7-də bu məsələ ilə bağlı qərarını verəcək. Ekspertlər bildirirlər ki, Mülki Məcəllənin bu məsələ ilə bağlı sadalanan maddələri istənilən yöndən yozula bilər. Əksəriyyət bu fikirdədir ki, Konstitusiya Məhkəməsinin qərarı vətəndaşların xeyrinə olmayacaq...**

**Ekspert Natiq Cəfərli** musavat.com-a bildirib ki, Konstitusiya Məhkəməsi öz-özlüyündə bu məsələyə baxa bilməzdi: “Müraciətlərin çox olduğunu nəzərə alıb bu məsələyə baxır. Çox güman, bankların da qərardan öncə müəyyən lobbiçilik fəaliyyəti olacaq. Əgər sırf hüquqi nöqteyi-nəzərdən yanaşsaq, bankların xeyrinə qərar çıxması ehtimalı yüksəkdir. Çünki ”öhdəliyin yaranması dövrü" ifadəsinə əsasən, banklar dollarla kreditlərin yeni məzənnə ilə qaytarılmasında haqlı qalır. Bu ifadə bankların mövqeyini haqlı vəziyyətə gətirir. Amma Konstitusiya Məhkəməsinin həm də tövsiyə hüququ var. Yalnız qanunları şərh etmir, həm də tövsiyə və yorum verir. Ümid edək ki, Konstitusiya Məhkəməsi bu hüququndan da istifadə edərək Mülki Məcəlləyə müəyyən dəyişikliklərin tətbiqini tövsiyə edəcək. Müəyyən dəyişiklik və həll yolunu təklif etməklə istehlakçıların, vətəndaşların hüququ ilə də bağlı müəyyən yön verəcək qərarlar qəbul edəcək. Çünki vətəndaşların vəziyyəti həddindən artıq ağırdır. Valyuta ilə kredit götürən vətəndaşlara və bank sisteminə də bu, ciddi təsir göstərir. Geri qayıtmayan kreditlərin həcmi artır və bu, bank sektoruna ciddi bir təhdid yaradır. Bank sektoru gələcəkdə bu təhdidi qaldıra bilməyəcək. Ona görə də həm bank sektorunu, həm vətəndaşları təmin edə biləcək bir qərarın olması ölkə iqtisadiyyatı üçün də, bank sektoru üçün də, vətəndaşlar üçün də daha yaxşı olardı. Amma əslində sırf hüquqi yorum olacaqsa, ancaq hüquqi nöqteyi-nəzərdən məsələyə baxacaqlarsa, təəssüf ki, bankların xeyrinə qərar çıxma ehtimalı həddindən artıq yüksəkdir".

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, Konstitusiya Məhkəməsinin hansı qərarı verəcəyini dəqiq söyləmək mümkün deyil:** “Konstitusiya Məhkəməsinin qəbul edəcəyi qərarla vətəndaşların xeyrinə qərar çıxartmasını istərdim. Nəzərə alsaq ki, dollarla kredit götürən vətəndaşların sayı kifayət qədər çoxdur və manatın dollara nisbətən məzənnəsi aşağı düşdüyü üçün onların həmin vəsaiti geri qaytarmasında xeyli çətinliklər olub. O baxımdan, biz əslində Mərkəzi Banka təklif etmişdik ki, Mərkəzi Bank banklara orta məzənnə olan 0,92 manatla kreditlərin geri qaytarılmasını tövsiyə etsin. Lakin Mərkəzi Bank kommersiya banklarına tövsiyə məktubu göndərmədiyi üçün bu məsələyə kommersiya bankları tərəfindən baxılmadı.

Təbii ki, burada iki məsələ var. Birincisi, vətəndaşların ödəmə qabiliyyətidir. Çünki hazırda mövcud olan yeni kurs dollarla kredit götürən şəxslərin borclarını geri ödəməyə problem yaradır və onlar ödənişlərini həyata keçirməkdə çətinlik çəkirlər. Bu da həm onların ödəmə qabiliyyətinə mənfi təsir göstərir, həm onların bütövlükdə xərclərinin artmasına həm də problemli kreditlərin artmasına gətirib çıxarır. Artıq yeni kursla böyük məbləğdə kredit götürən vətəndaşlar həmin kreditləri ödəməkdə çətinlik çəkəcəklər".

**Ekspertin sözlərinə görə, bununla belə, qərar bank sektoruna da mənfi təsir göstərməməlidir:** “Əgər kommersiya bankları öz ziyanlarını kompensasiya etmək üçün bir sıra digər maliyyə mənbələri tapmaq imkanlarına malikdirlərsə, vətəndaşların əksəriyyəti üçün belə bir imkan yoxdur. Ona görə təəssüf ki, qərarı indidən proqnozlaşdırmaq mümkün olmasa belə, daha məqsədə uyğundur ki, Konstitusiya Məhkəməsinin qəbul edəcəyi qərar vətəndaşların xeyrinə olsun”.

**Ekspert Samir Əliyev qeyd edib ki, məhkəmənin bankların xeyrinə qərar çıxarması ehtimalı böyükdür:** “Konstitusiya Məhkəməsinin kreditlərin yeni məzənnə ilə ödənişi barədə qərar çıxaracağını ehtimal edirəm. Konstitusiya Məhkəməsinin dollarla götürülmüş kreditlərin hansı məzənnə ilə qaytarılmasına aydınlıq gətirmək təşəbbüsü təqdirəlayiqdir. Gec də olsa, bu addımın atılması aylarla davam edən kredit mübahisələrinə son qoya bilər. Banklar təzə məzənnə ilə ödənişi tələb edir, müştərilər isə köhnə məzənnə ilə ödəmək niyyətlərini bildirirlər. Hər ikisi yanaşmada qanunvericiliyə istinad edilir”.

**Ekspertin sözlərinə görə, qanunvericilik bu məsələdə birmənalı mövqe ortaya qoya bilmir:** “Əhalini haqlı sayanlar əsas diqqəti Mülki Məcəllənin 439.7-ci maddəsinə yönəldərək xarici valyutada olan kreditlərin müqavilə bağlanan vaxt olan məzənnə, yəni köhnə məzənnə əsasında ödənilməli olduğunu bildirir. Banklar isə Mülki Məcəllənin 439.2-ci maddəsinə istinad edərək ”ödəniş anında ödəniş yerinin məzənnə qiyməti üzrə aparılır" fikrini əsas götürürlər və yeni məzənnə ilə ödənilməli olduğunu qabardırlar. Ali Məhkəmənin Plenumunun 4 saylı 24 noyabr 2005-ci il tarixli qərarı da banklara əlavə üstünlük verir. Həmin qərarda xarici valyutada olan borcun qətnamənin icra olunduğu günə olan manat məzənnəsi ilə hesablanmalı olduğu qeyd edilir. Problem əslində qanunvericilikdəki boşluqdan və qanunların dilinin qüsurlu olmasından qaynaqlanır".

❑ R.RƏFİYEVA

# "Neftin qiyməti uzun müddət 40-70 dollar arasında oynayacaq"

Ekspertlər bildirirlər ki, hökumət mütləq bunu nəzərə alaraq öz planlarını qurmalıdır, neftin ucuzlaşması ehtimalı böyükdür...

**Dünya bazarında neftin qiyməti bahalaşıb. İCE London birjasında Brent markalı neft 1,03 faiz artaraq 64,11 dollar olub. WTI markalı neftin may fyuçersinin qiyməti isə 1,2 faiz bahalaşaraq 56,43 dollara çatıb. Texas markalı neftin qiyməti 58 dollar olub. Ekspertlər isə bildirirlər ki, neftin bahalaşması hələ ki milli valyuta olan manata müsbət təsir göstərə bilmir. Yəni neftin indiki qiyməti manatı bahalaşdıracaq həddə deyil.**



**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı bildirib ki, neftin qiyməti hələ uzun müddət sabitləşməyəcək: “Son 2 həftədə dünya bazarında neftin qiymətləri təqribən 10 dollara yaxın artıb. Bununla bağlı müxtəlif fikirlər, proqnozlar, xəbərlər var. Əslində son 10 gündə neftin qiymətinin enməsinə ciddi təsir göstərə bilən çoxlu sayda məlumatlar çıxır. Aprel ayı həm ilin 1-ci rübü, həm də mart ayının göstəricilərinin açıqlandığı aydır. ABŞ-da mart ayında neft istehsalı 2014-cü ilin martına görə 13 faiz artaraq gündəlik 9,32 milyon barelə çatıb. Bu, 1973-cü ildən bəri ən yüksək nəticədir. OPEK ölkələri mart ayında ortalama gündəlik hasilatı son 12 ilin pik nöqtəsinə çatıb- 31,2 milyon barel təşkil edib. Rusiya 2015-ci ilin 1-ci rübündə SSRİ dövrü daxil, tarixində ən rekord hətta neft hasil edib- 131,469 milyon ton. Həmçinin Səudiyyə Ərəbistanı mart ayında gündəlik hasilatını maksimum həddə çatdırıb- 10,29 milyon barel təşkil edib. Qazaxıstan, İraq, Liviya, Meksika, Venesuelada da hasilat artıb. Beləliklə, açıqlanan hasilat rəqəmləri neftin qiymətinin daha da aşağı enməsinə səbəb olmalıdır, bəs nə baş verir?”

Ekspertin sözlərinə görə, dünyada gündəlik neft hasilatı 95-96 milyon bareldir. Bunun 30-31 milyon bareli OPEK ölkələrinin payına düşür: “Yəni OPEK-dən kənarda qalan ölkələrin neft bazarına təsiri getdikcə artır. Bazara son illər əsas təsir edə biləcək ölkə ABŞ-dır. Bazar son həftələr ancaq bu ölkədən gələn siqnallara reaksiya verir. Keçən həftə ABŞ-ın strateji neft ehtiyatlarının 5-6 milyon barel artması gözlənilirdi. Amma cəmi 1,2 milyon barel artıb- yəni yenə artım var, amma artım gözləntilərin altında olduğuna görə bazar isterik reaksiya verdi. Neft 5 faiz bahalaşdı. Hekayə də budur ki, ABŞ-da hasilat getdikcə azalacaq, bu isə qiymətlərə təsir göstərəcək- açığı, sırf spekulyativ ajiotajdır”.

**N.Cəfərli qeyd edib ki, yaxın aylarda neft bazarında qiymətləri aşağı çəkməyə təsir edəcək amillər var:** “İranın bazara girmək ehtimallarının yüksək olması, Səudiyyə və Rusiyanın bazarlarını itirməmək və qiymət enməsindən itkiləri azaltmaq üçün hasilatı artırmaq siyasəti mühüm amillərdir. Həmçinin İraqın hasilatı artırması, Liviyanın hasilatı 300 min bareldən 1 milyon barelə qədər artırmaq üçün işlərin tamamlanması, ABŞ FED-in faiz artırmaq ehtimalının yüksək olması da amillərin sırasındadır. Çin iqtisadiyyatının yavaşlaması, ABŞ-da və Avropada nefti saxlamaq üçün ehtiyat həcmlərin dolması da neft bazarında qiymətləri aşağı salacaq amillərdən hesab edilir. Qiyməti yuxarı çəkə biləcək yeganə amil isə ABŞ-da hasilatın kəskin azalması, ya da böyük regional müharibələr ola bilər. Regional müharibələri istisna etsək, bazar bu həftə də ABŞ-dan gələn əsas iki statistikaya köklənəcək: Üçüncü gün Bakı vaxtı ilə saat 19:30-da çıxacaq ABŞ neft rezervlərinin həftəlik artım rəqəmləri, həmçinin, 5-ci gün Bakı vaxtı ilə 20:30-da açıqlanacaq ABŞ-da işlək buruqların sayı. Düşünürəm ki, bu həftə neft bazarı üçün yönünü bəlli etmək üçün önəmli həftə olacaq. Amma bütün orta və uzun perspektivləri analiz edərkən görünən odur ki, hələ uzun illər neftin qiyməti 40-70 dollar arasında gedib-gələcək. Azərbaycan hökuməti mütləq bunu nəzərə alaraq öz planlarını qurmalıdır, əgər ümumiyyətlə, bir planları, proqramları varsa, yəni...”

**Ekspert Samir Əliyev də qeyd edib ki, neftin bahalaşması və indiki qiyməti vəziyyəti dəyişəcək həddə deyil:** “Neft martın ortalarından başlayaraq, son aylarda itirdiyi mövqeləri bərpa etməyə çalışır. Aprelin 10-dan isə dayanmadan üzü yuxarı gedir. Azərbaycanın milli valyutasının məzənnəsi də neftin qiymətindən birbaşa asılıdır. Neftin qiymətinin hərəkət trayektoriyasından asılı olaraq, manat da hərəkət edir. Ekspertlər neftin bahalaşacağı təqdirdə, manata təzyiqlərin azala biləcəyini qeyd edirlər. Mərkəzi Bankın rəhbəri də son açıqlamasında manatın neftin qiymətinə adaptasiya olunacağını bildirib. Neftin indiki qiyməti manat üçün sabitlik vəd etmir. Manatın son günlər bahalaşmasını daha çox Mərkəzi Bankın psixoloji olaraq, bazarı sakitləşdirmək siyasəti kimi də qiymətləndirmək olar. Fevral devalvasiyasına rəğmən Mərkəzi Bankın valyuta ehtiyatlarının mart ayında 14 faiz azalması manata təzyiqin güclü olduğunu göstərir. Hətta mart ayında neftin bir qədər bahalaşması, dolların isə cüzi ucuzlaşması da təzyiqi azalda bilmədi. Çünki manata ən böyük təzyiqi hazırda panika yaradır. Bu təzyiq yaxın aylarda da davam edəcək. Sonra sakitləşəcək”.

**Ekspertin sözlərinə görə, hər şey dünya əmtəə bazarlarındakı proseslərdən və hökumətin bu proseslərə reaksiyasından asılı olacaq:** “Neftin qiyməti 70 dollar həddini keçərsə, manatın məzənnəsində sabitlik yarana bilər. Eyni zamanda hökumət bəzi addımlar atmaqla, manata təzyiqi azalda bilər. Bu addımlardan biri də 2015-ci ilin dövlət büdcəsi xərclərinin azaldılması ola bilər”.

❑ RÖYA

# Energetik içkilər ürək xəstəlikləri yarada bilər

## Adil Qeybulla: "Bu içkilərin tərkibindəki kofein orqanizmdə ciddi fəsadlar törədir"
## Eyyub Hüseynov: "Energetik içkilər arzuolunmazdır"

**Bir çox Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da energetik içkilərin gətirilməsinə və satışına qadağa qoyulması təklif edilsə də, buna müvəffəq olunmayıb. Tərkibində süni kofein olan belə içkilərin Azərbaycanda satışı yalnız məktəb bufetlərində qadağan olunub.**

İlk dəfə 1987-ci ildə Avstriyada və 1997-ci ildə Amerikada satılmağa başlanan enerji içkiləri xüsusilə gənclər arasında çox məşhurdur. Bəzi Avropa ölkələrində, məsələn, Norveç, Danimarka, Fransada bu içkilərin sərbəst satışı qadağandır. Bir neçə ay əvvəl Çeçenistan lideri Ramzan Kadırov da muxtar respublikanın ərazisində energetik içkilərin satışını yasaqlayan qanun layihəsini hazırlamaq barədə sərəncam verib.





Azərbaycanda isə energetik içkilərin satışı və alıcıları son vaxtlarda daha da artıb. Energetik içkilər iki kateqoriyaya bölünür: birincisində kofeinin miqdarı, ikincisində isə karbohidratın miqdarı çoxdur. Bütün energetik içkilərin tərkibində yüksək faizli kofein mövcuddur. Lakin bu içkilərin tərkibindəki vitaminlər multivitamin kompleksini əvəz edə bilməz.

Digər tərəfdən, energetik içkinin təsiri keçəndən dərhal sonra insanda yorğunluq hissi yaranır. Yəni içdikdən sonra enerji yüksəkliyi hissi yaransa da, əslində bu, sadəcə süni enerji artımıdır. Hazırda Azərbaycan bazarında "XL", "Pitbull", "Rox", "Red Bull", "Hell", "Jaquar", "Blue", "Reo Line", "Monster" və sairə kimi energetik içkilər satılır. Onların içərisində daha məşhuru olan "Red Bul" energetik içki bazarının 70 faizini təşkil edir.

Onların qiyməti kofein və karbohidratların tərkibinə, həmçinin böyük və kiçikliyinə görə 1 və 4 manat arasında dəyişir. Baş çəkdiyimiz mağazalarda satıcılar bu içkilərin yaxşı satıldığını, alıcılarının həddən artıq çox olduğunu dedilər. Alıcı Sərxan Əliyev isə energetik içkidən hər gün istifadə etdiyini və bu içkinin onun yorğunluğunu aradan qaldırdığını deyirdi. Zərərləri haqda heç bir məlumatı olmadığını deyən alıcı artıq bu içkiyə vərdiş etdiyini və hər gün bir ədəd də olsa içdiyini söylədi.

**Bizə enerji verdiyini düşünərək alıb içdiyimiz energetik içkilərin ürək xəstəliklərinə səbəb olduğunu deyən tibb elmləri doktoru, professor Adil Qeybulla bu içkilərin insanda psixoloji asılılıq yaratdığını bildirdi:** "Kofein sinir stimulyatorudur və orqanizmdə stimulyasiya yaradır. Amma bu, qısamüddətli bir effekt verir. Energetik içkilərin tam tərkibi hələ ki açıqlanmayıb. Bu baxımdan hesab edirəm ki, belə içkilərdən məhdud dərəcədə istifadə etmək lazımdır. Bu içkilərin tərkibindəki kofein orqanizmdə ciddi dəyişikliklərə səbəb olur. Yəni ürək əzələlərinin həddən artıq stimulyasiyasına və zəifləməsinə gətirir. Belə xəstələrdə ürəyin tez-tez döyünməsi, ürək ritminin pozulması kimi hallar baş verir. Ona görə də hesab edirəm ki, bu içkilərdən mümkün qədər uzaq durmaq daha yaxşıdır".

Bəs bir sıra Avropa ölkələrində olduğu kimi Azərbaycanda da bu içkilərin satışına qadağa qoyula bilərmi? Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov energetik içkilərin arzuolunmaz içkilər olduğunu dedi: "Azad İstehlakçılar Birliyi belə içkilərin məktəb bufetlərində satışına qadağa qoyulmasına nail olub. Düzdür, Bakı şəhərində bu qadağaya əməl olunsa da təəssüflər olsun ki, regionlarda problemlər qalır. Biz çalışırıq ki, məktəb yaxınlığında, tibb müəssisələri yaxınlığında energetik içkilər satılmasın. Energetik içkilərin etiketinə baxsaq görərik ki, onu dövlət orqanları yoxlayıb sertifikat verib. Lakin onu mükəmməl yoxlayan qurum yoxdur. Bütün dünya ölkələrində istehlakçı hüquqlarını qoruyan qurumlar deyir ki, energetik içkilər arzuolunmazdır".

**Bu içkilərin yalnız istehlakçı boykotu ilə satışdan çıxarılmasının mümkün olduğunu deyən qurum sədri reklamların da bu işdə əsas rol oynadığını dedi:** "Energetik içkilərin reklamı o qədər vizual və səs effekti ilə çəkilib ki, istehlakçıların beyinləri yeyilir. Hətta "Coca cola"ya bəlkə 10 il bulannıq su doldursaq, yenə istehlakçılar başa düşməz ki, bu nədir. Çünki bu məsələ artıq istehlakçının beyninə oturub. Bu tip içkilərin qarşısını almaq üçün reklamlara məhdudiyyətlər qoyulmalıdır. İstehlakçı hüquqlarını qoruyan qurumlar daima nəzarət etməli, dövlət qurumları da monitorinq aparmalıdır. Səhər dənizkənarı bulvara getsək görərik ki, ağ mərmərin üzərinə tökülmüş "Coca-cola" yerə necə suvaşıb qalıb. Bu da onun göstəricisidir ki, bu tip içkilərin tərkibi müəmmalıdır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## Bakıda dəhşətli yanğın- 6 maşın külə döndü

**Bakının Tbilisi prospektində yerləşən "Qafqaz" hotelinin yanındakı yarımtikilidə güclü yanğın olub. "Qafqazinfo" xəbər verir ki, hadisə şahidlərinin «SalamNews»a verdikləri məlumata görə, yanğın nəticəsində ərazidəki altı avtomobil yanaraq külə dönüb. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənləri, təcili tibbi yardım avtomobilləri, o cümlədən post patrul xidmətinin əməkdaşları gəliblər. Şahidlər bildirirlər ki, hava küləkli olduğundan yanğının hotelin binasına keçmə ehtimalı böyük olub. Yanğının qarşısı alınıb.**

## Bakıda sarsıdıcı olay: qadın özünü güllənin qarşısına verdi

**Aprelin 20-də səhər saat 10 radələrində Bakının Binəqədi rayonunda ər arvadını güllələyib. Lent.az-ın məlumatına görə, Binəqədi Rayon Polis İdarəsindən anspress-ə bildirilib ki, hadisə Rəsulzadə qəsəbəsində qeydə alınıb. Qəsəbə ərazisində yaşayan 65 yaşlı, şəxsiyyəti məlum olmayan kişi həyat yoldaşı 60 yaşlı Heyran Məmmədovanı ov tüfəngi ilə güllələyib.**

Güllə yarası alan qadın hadisə yerində keçinib. Bildirilir ki, hadisəni törədən kişinin ayaqları yoxdur. Olayın baş vermə səbəblərinə gəlincə, kişi əvvəlcə intihar etmək istəyib. O, ov silahı ilə özünü güllələmək istəyən zamanı arvadı mane olmağa çalışıb. Qadın silahın lüləsindən tutub çəkmək istəyərkən atəş açılıb. Nəticədə qadın ürəyindən güllə yarası alıb. Faktla bağlı araşdırma aparılır.

## Keçmiş məhkum iki qardaşı bıçaqladı

**Bakıda iki qardaşı bıçaqlayan 47 yaşlı keçmiş məhkum tutulub. Bakı Şəhər Baş Polis İdarəsindən (BŞBPİ) «Trend»ə verilən məlumata görə, aprelin 18-də saat 00:30 radələrində Binəqədi qəsəbəsi 1-ci mədən küçəsində Elnur Nəsirova və qardaşı Orxana bıçaq xəsarəti yetirilib.**

Binəqədi Rayon Polis İdarəsi Post Patrul Xidməti Bölməsi və 4-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş 1968-ci il təvəllüdlü Tehran Zahid oğlu Səlimov tutulub. Faktla bağlı araşdırmalar davam etdirilir.




## «Azercell» növbəti dəfə «TEDx Bakı-2015» konfransına dəstək oldu

**18 il ərzində uğurlu sosial layihələr həyata keçirən, bir sıra konfranslara, tədbirlərə dəstək olan Azərbaycanın lider mobil operatoru «Azercell Telekom» bu ənənəni uğurla davam etdirməkdədir.**

**Ölkədə müxtəlif sosial sahələrin inkişafına yönəlmiş bır sıra layihələrlə yanaşı, gənclər üçün elm, təhsil istiqamətində həyata keçirilən layihələr də şirkətin ən önəmli təşəbbüslərindən biridir. Bunlar arasında Azərbaycanın aparıcı ali təhsil ocaqlarında «Azercell»in təşəbbüsü ilə çalışan 3G və 4G laboratoriyaları, elektron təhsil otaqları, tələbələr üçün müxtəlif təcrübə və təqaüd proqramları, "Nə, Harada, Nə zaman?" intellektual televiziya oyununa dəstək, nəhayət, şirkətin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin nəzdində keçirilən saysız uğurlu layihələr aiddir.**

**Şirkətin bu sahədə atdığı növbəti addım isə aprelin 18-də Bakı Caz Mərkəzində (Baku Jazz Center) keçirilən« TEDxBakı» "Yaddaş" tədbirinə dəstəyi olub. Azərbaycanda keçirilən bu ilki «TEDx Bakı» konfransına 200-dən artıq iştirakçı qatılıb. Mövzusu "Yaddaş" olan tədbirdə 8 spikerlə yanaşı, «Azercell»in əməkdaşı İmran Bağırov da çıxış edərək, tamaşaçılara müştəri təcrübəsi mövzusunda maraqlı təqdimat nümayiş etdirib.**

**30 ildir ki, dünya alimlərini, siyasətçilərini, sahibkarlarını, mədəniyyət xadimlərini və onlarla digər ixtisas sahiblərini bir arada birləşdirən TED (Texnologiya, Əyləncə, Dizayn) adlı konfrans ilk dəfə 1984-cü ildə baş tutub. Ilk TED konfransında yenicə buraxılmış "Macintosh" kompüteri, "Sony" istehsalı olan kompakt-disk təqdim olunub, süni intellekt və s. bu kimi hazırda geniş tətbiq olunan fikirlər üzrə çıxışlar olub. Bu günə qədər TED səhnəsində ABŞ-ın keçmiş prezidenti Bill Clinton, Nobel mükafatçısı James Watson, «Microsoft»dan Bill Gates, «Google»dan Eric Schmidt kimi spikerlər çıxış edib.**

**«Azercell» bundan sonra da ölkəmizdə gənclərin inkişafına yönəlmiş sosial layihələri həyata keçirməkdə davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

YENİ MÜSAVAT
N 84 (6112) 21 aprel 2015







# "Laçın"da satıcılar şam işığında çalışır

## Tanrıverdi Mustafayev: "Ola bilər, həmin ticarət mərkəzlərinin işıqları daxili problemlərlə əlaqəli kəsilib"

**Ötən həftənin cümə günündən etibarən Bakının 8-ci kilometr ərazisində yerləşən "Laçın" ticarət mərkəzində və ona bitişik "Xalqlar Dostluğu" yarmarkasında elektrik enerjisi verilişinin dayandırılması xəbəri mətbuatın müzakirə mövzusuna çevrildi. Elektrikin kəsilməsinin səbəbləri ilə bağlı isə dəqiq heç bir məlumat olmasa da müxtəlif versiyalar səslənməkdədir.**

Dünən "Yeni Müsavat"ın müxbiri hər iki ticarət mərkəzinə baş çəkərək vəziyyəti müşahidə edib.

Öncə onu qeyd edək ki, "Laçın" ticarət mərkəzi iki gün ərzində bağlı olsa da, artıq fəaliyyətini bərpa edib. Lakin dördüncü gündür ki, ticarət mərkəzi işıq üzünə həsrət qalıb. Satıcılar şam, lampa və generatorların köməyi ilə dükanlarını işıqlandırmağa çalışsalar da, alıcılıq demək olar ki, yox səviyyəsindədir. Qaranlıq dəhlizlər boyunca insanlar telefon işıqlarının köməyi ilə hərəkət edirlər. Bütün dükanlarda şam yandırılıb. Satıcılardan bu durumun səbəbini öyrənməyə çalışsaq da, heç biri danışmaq istəmədi. Onların əsas narahatlığı isə 4 gündür 1 manat belə əldə edə bilməmələri və ayın sonunda icarə haqqını necə ödəyəcəkləri ilə bağlıdır. Satıcılar deyir ki, bu şəraitdə heç bir alıcı mal almır: **"Biz 4 gündür ziyana işləyirik. Ən azından ayın sonunda icarə haqqı ilə bağlı bizə güzəşt etməlidirlər".**

Problemin səbəbini öyrənmək məqsədilə "Laçın" ticarət mərkəzinin müdriyyəti ilə də əlaqə saxlamağa çalışdıq. Lakin qapısının üstündə "müdriyyət" yazılan otaqda bizi özünü mühafizəçi kimi təqdim edən şəxs qarşıladı. O, rəhbərliyin yerində olmadığını və bu haqda heç bir məlumat verə bilməyəcəyini bildirdi.

Laçın ticarət mərkəzinə bitişik olan "Xalqlar Dostluğu" yarmarkasına da baş çəkdik. Orada satıcılar bildirdi ki, aprelin 17-də günorta saatlarından etibarən işıqlar sönüb və aprelin 19-da bərpa edilib. İki gün ərzində isə bazarın yalnız gün işığı düşən hissələrində satıcılar işi davam etdirib. Bu gün isə problem tamamilə həll olunub.



"Xalqlar Dostluğu" yarmarkasının rəhbərliyindən bildirdilər ki, transformatorda yaranan problem səbəbindən iki gün bazara elektrik enerjisi verilməyib. Ancaq sonradan problem aradan qaldırılıb və hazırda vəziyyət normaldır.

Adıçəkilən ticarət mərkəzlərində elektrik enerjisinin kəsilməsinin səbəbinə gəlincə, əvvəlcə mətbuatda bunun elektrik borcları səbəbindən baş verdiyi yazıldı. Lakin **"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev** açıqlama verərək bildirdi ki, sözügedən ticarət mərkəzlərinin işıqlarının kəsilməsi "Azərişıq"la əlaqəli deyil: **"Biz nə borca, nə də yenidənqurma işlərinə görə heç bir ticarət mərkəzinin işığını kəsməmişik. Ola bilər, həmin ticarət mərkəzlərinin işıqları daxili problemlərlə əlaqəli kəsilib".**

Qeyd edək ki, bazar rəhbərliyi rəsmi açıqlama verməsə də, mediada müxtəlif versiyalar səslənməkdədir. Azadlıq.info saytında yer alan xəbərdə bildirilir ki, burada çalışan ticarətçilər adlarının çəkilməsini istəmədən deyiblər ki, elektrik enerjisinin kəsilməsi ticarət mərkəzinə qoyulan "haqla" bağlıdır:

**"Görünür, məbləğ o qədər böyükdür ki, müdriyyət ödəmək qabiliyyətində olmayıb. Yoxsa əvvəllər də belə tədbirlərə görə əlavə vəsaitlər tələb olunurdu və heç bir problem yaşanmadan məsələ yoluna qoyulurdu"**, - deyə ticarətçilər bildiriblər.

Ticarətçilər onu da deyib ki, problemi texniki nasazlıqla da əlaqələndirməyə çalışmasınlar. Çünki elektrik enerjisinin verilməsi hər iki ticarət obyektinə eyni vaxtda dayandırılmışdı. Lakin dünəndən "Xalqlar Dostluğu" yarmarkasına enerji verilir. **"Görünür, onların rəhbərliyi yuxarılarla dil tapa bilib, bizimki isə hələ yox. Belə olmasaydı, bizim də işıqlar yanardı. Axı bu iki obyekt bir-birinə demək olar ki, bitişikdir və elektrik mənbələri də eynidir"**, - deyə "Laçın"da çalışanlar azadlıq.info-ya məlumat verərkən qeyd ediblər.

"Laçın" ticarət mərkəzinə verilən elektrik enerjisinin hələ də bərpa edilməməsi ilə bağlı müxtəlif iddialar səslənsə də bunlardan hansının həqiqət olduğu məlum deyil. Adıçəkilən ticarət mərkəzinin rəhbərliyi ilə əlaqə saxlamağa çalışsaq da cəhdlərimiz baş tutmadı.

**Mövzunu davam etdirəcəyik.**

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# Bu il mer-meyvə qıtlığı ola bilər

## Murtuzəli Hacıyev: "Kənd təsərrüfatı elə bir sahədir ki, hava-iqlim şəraitindən sığortalanmayıb"

**Bu il qış fəslinin mülayim, yaz fəslinin isə daha sərt şaxtalı keçməsi meyvə-tərəvəz məhsullarının taleyini də sual altında qoydu. Ötən həftədən başlayaraq bəzi regionlarda havanın şaxtalı keçməsi, yağıntı və sərt küləyin olması ağacların çiçəklənməsi ərəfəsində fermerlərin narahatlığına səbəb oldu.**

Bəs görəsən, bu ilin iqlim şəraiti məhsuldarlığın aşağı düşməsinə gətirib çıxaracaqmı?

Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov bildirdi ki, bu il çəyirdəkli meyvələrin qıtlığı yaşanacaq: "Son günlərin hava durumunu müqayisə etsək görərik ki, bu, məhsuldarlıq üçün heç də əlverişli deyil. Aprelin 19-da 22 dərəcə istilik var idi, bu gün isə temperatur 14 dərəcəyə düşüb, bərk şimal küləyi əsir. Dağlarda güclü yağıntı olacağı gözlənilir. Bu yağıntı və külək meyvə ağaclarında mayalanma prosesinə mane olacaq. Bir var ki, çiçəkdəki tozları arılar, kəpənəklər yaysın, bir də var ki, bərk külək çiçəkləri qoparsın. Son aylar yağıntının miqdarı həddindən artıq çox olub. Bu, məhsuldarlığın artmasına səbəb ola bilər. Çünki torpaqlar lazım olan rütubəti alıblar. Ancaq onu da nəzərə almaq lazımdır ki, qəfil başlayan sərt küləklər və paralel olaraq yağışın yağması çəyirdəkli meyvələrin qıtlığına səbəb ola bilər. Bəzi ekspertlər sadəcə yağıntının miqdarını nəzərə alırlar. Lakin bugünkü külək onu göstərir ki, bizdə hələ də iqlim formalaşmayıb. Biz yazı və payızı itirmişik, birbaşa olaraq yaydan qışa, qışdan yaya keçirik. Ötən il oktyabr ayının əvvəllərindən insanlar paltoya keçməli oldular. Bu da anormal iqlim göstəricisidir. Digər tərəfdən, bu qış dekabr və yanvar aylarında demək olar ki, yağıntı olmadı, yalnız fevral ayında müəyyən qədər yağıntı oldu. Fevral ayı isə torpağın oyanma vaxtıdır. Ağaclar torpaqdan lazım olan gübrələri, mineralları alırlar. Mart ayında ağacların budanması aparılır, bu yanlışdır və məhsuldarlığı azaldır. Ağac çiçəklənən vaxt budama aparmaq düzgün deyil. Budama yanvar ayında aparılmalıdır. Bu baxımdan bu mövsüm çəyirdəkli bitkilərin qıtlığı ola bilər. Xaricdən gətirilən geni dəyişdirilmiş məhsullar bazarda çox olacaq".

**Ekoloq onu da vurğuladı ki, meyvələrin əksinə olaraq taxılçılıqda məhsuldarlıq bol olacaq:** "Mart və aprel aylarında yağıntının miqdarının çox olmasını nəzərə alsaq, bu il taxılçılıqda məhsul bolluğunun olacağını proqnozlaşdırmaq olar. Dekabr və yanvar ayları quraqlıq keçdi, lakin mart və apreldəki yağıntılar bunu əvəz etdi. May ayında quraqlıq olmasa taxıl bol olacaq. İyun ayı isə artıq buğdanın yığım dövrüdür".



**Ekspertin fikirlərinə münasibət bildirən Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev isə hava şəraitinin meyvəçiliyə o qədər də böyük ziyan vurmadığını qeyd etdi:** "Hələ ki bu haqda danışmaq tezdir. Azərbaycanın meyvəçilik sahəsi üzrə ixtisaslaşan şimal bölgəsində çəyirdəkli meyvələrdə oyanma yeni başlayıb. Ekspertlərin qıtlıq olacağı ilə bağlı şərhləri peşəkarlıqdan uzaqdır. Yağıntının çox olduğu vaxtda yalnız çəyirdəkli meyvələrdə çiçəklənmə olmuşdu. Bunlar alça, ərik və digərləridir. Bunlara da elə böyük fəsad dəyməyib və biz hesab etmirik ki, qıtlıq ola bilər. Kənd təsərrüfatı elə bir sahədir ki, hava-iqlim şəraitindən sığortalanmayıb. Bu səbəbdən konkret rəy vermək hələ ki tezdir".

**Murtuzəli Hacıyev onu da qeyd etdi ki, bu il taxılçılıq sahəsində məhsuldarlığın bol olacağı gözlənilir:** "Havaların yağıntılı keçməsi ən çox taxıl məhsullarının bol olmasına şərait yaradacaq. Xüsusilə dəmyə bölgələri üçün bu daha əlverişlidir. Taxıl bitkilərinin suya ən çox tələbatı olduğu vaxtda yağıntı bol oldu. Mütəxəssislərimiz də qeyd edir ki, taxıl sahələrində yüksək məhsuldarlıq olacağı nəzərə çarpır. Təbii ki, hava şəraiti də buna imkan verməlidir. Meyvəçilikdən danışmaq bir qədər tezdir. Hər hansı ciddi fəsad yoxdur. Bizim bölgələrdəki mütəxəssislərimiz də bildirir ki, hazırda ərik, alça və bu kimi çəyirdəkli meyvələr çiçəkləyib, yağıntı və külək onlara müəyyən qədər təsir göstərib. Lakin bu, məhsuldarlığın aşağı olacağı mənasına gəlmir. Çünki sonrakı dövrdə fermerlər müəyyən aqrotexniki tədbirlər həyata keçirməklə itirilmiş potensialı bərpa edə bilərlər. Çəyirdəkli meyvələrin biologiyasında belə bir şey var ki, onlarda yatmış tumurcuqlar olur. Aqrotexniki tədbirlər vasitəsilə həmin yatmış tumurcuqlarla itirilmiş potensialı bərpa etmək mümkündür".

**❑ Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

Son səhifə

N 84 (6112) 21 aprel 2015




## Bu da itlərin modelyeri

Amerikada yaşayan Linda Higgins adlı modelyer kolleksiyalarını yalnız itlər üçün hazırlayır. Üstəlik, hazırladığı paltarlar üçün defilələr təşkil edir və xüsusi tərbiyə edilmiş itlər onun hazırladığı paltarları geyərək podiumda yeriyirlər. Nyu-York, Milan, Barselona və London kimi böyük şəhərlərdə it paltarları satılan bahalı mağazalar açıb. Hazırladığı paltarlar xüsusilə reriyer, kaniş və şivava cinsli itlərə yaraşır. Məşhur modelyer paltarları dünyanın dörd bir tərəfindən gətirtdiyi bahalı parçalar və xüsusi ipəklərdən hazırlayır. Lindanın hazırladığı paltarlar “Classy Doggie Designs” markası ilə satışa çıxarılır. İtlər üçün xüsusi tikilmiş gəlin paltarları Lindanın kolleksiyasının ən sevilən parçalarıdır. Paltarların qiyməti 50-300 dollar arasında dəyişir.

Məlumat üçün bildirək ki, İngiltərədə it geyindirmə modası 100 il əvvəl kraliça Viktoriyanın dövründə başlayıb. Bu moda zamanla bütün Amerikaya və Avropaya yayılıb. İtlər üçün xüsusi mağazalar açılıb. Artıq iti olan hər kəs onun üçün xüsusi paltarlar almağa diqqət edir.

# 30 dəqiqədə xərçəng testi

İngiltərənin London Universitetinin professorları hazırladıqları yeni texnologiyanın köməyi ilə ağciyər xərçəngini 30 dəqiqə ərzində müəyyənləşdirə biləcəklər. Ağciyərə xərçəng diaqnozu qoymaq uzun vaxt tələb etdiyi üçün yeni texnologiya tibbdə dönüm nöqtəsi hesab edilir. Həkimlər ucunda kamera, kiçik UZİ aparatı və iynə olan kiçik cihazla nəfəs borusundan keçərək ağciyəri müayinə edə biləcəklər. Şübhəli hüceyrələrə UZİ aparatı ilə baxan həkimlər ehtiyac olarsa iynə ilə biopsiya analizi götürəcəklər. Yeni üsulun 3 illik təcrübədən sonra istifadə olunmağa başladığı haqda məlumat yayılıb.




# WhatsApp-dan Google bombası

Mesajlaşma proqramı artıq “Google Drive” ilə inteqrasiya olacaq. Son dövrdə bir sıra yeniliyi təqdim edən WhatsApp artıq “Google Drive” ilə inteqrasiya olacaq. 800 milyon aktiv istifadəçiyə xidmət edən mesajlaşma proqramı facebook tərəfindən satın alındıqdan sonra ciddi bir yenilənmə müddətinə girib. Ötən həftələrdə mobil mesajlaşma tətbiqində zəng funksiyasını təqdim edən WhatsApp indi daha bir yeni xüsusiyyətə qovuşur. Şirkətə yaxın qaynaqlardan gələn son məlumatlara görə, WhatsApp-ın son yenilənməsi ilə yeni xüsusiyyət işə düşəcək. WhatsApp-ın “Google Drive”a inteqrasiya edilməsi nəticəsində istifadəçilərinin paylaşdıqları mesajlar, foto və videolar arxivləşdiriləcək. Beləliklə, WhatsApp istifadəçiləri məlumatlarını və fayllarını “Google Drive”da asanlıqla saxlaya biləcəklər.






## 61 milyard dollarlıq zibil

Araşdırmalar nəticəsində məlum olub ki, hər il dünya üzərində 42 milyon ton elektrikli əşya zibilə atılır. Bu əşyaların içərisində 300 ton qızıl, bir ton gümüş, 16 milyon ton polad olduğu bildirilir. Mütəxəssislər zibilə atılan qızılın dəyərinin 10 milyard dollar, digərlərinin isə ümumi dəyərinin 51 milyard dollar olduğunu deyirlər. Atılan elektrikli əşyaların çəkisi hər il 2 milyon ton artır. 2018-ci ilə qədər bu zibillərin 50 milyon ton olacağı güman edilir. Elektrikli məişət tullantılarının yalnız 16%-i təkrar istifadə edilə bilir. Bu da ətraf mühitin çirklənməsinə səbəb olur. Zibilə atılan soyuducu, kompüter, mobil telefon, paltaryuyan maşın kimi cihazların tərkibində ozon təbəqəsinə zərər verən 4 min 400 ton kimyəvi maddə var.




**QOÇ** - Bu təqvimdə ən uğurlu hadisələr sizin bəxtinizə düşür. İşgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə olacaq. Bir sözlə, bürcünüz üçün ayın düşərli ərəfəsi bu gündən start götürəcək.

**BUĞA** - Fəaliyyət sahəsində bəzi gərginliklə rastlaşma ehtimalınız var. Özünüzü təmkinli aparmaqla bu kimi xoşagəlməzlikləri dəf edə bilərsiniz. Axşama yaxın dostlarınızla birgə olun.

**ƏKİZLƏR** - Əksər sahələrdə uğurlu məqamlar yaşayacaqsınız. Ürəyinizcə olan təkliflər, maraqlı adamlarla qarşılaşmaq ovqatınızı yüksəldəcək. Saat 18-dən sonra isə özünüzə qarşı diqqətli olun.

**XƏRÇƏNG** - Yalnız ailə-sevgi məsələlərində uğurlarınız mümkündür. Nə qədər gec deyil, qəlbinə dəydiyiniz adamlardan üzr istəyin. Mübahisə etməklə özünüzü gərgin situasiyalara yuvarlamayın.

**ŞİR** - Bir qədər mübahisəli gündür. Mövqelərinizi sarsıtmaq üçün bədxah adamların təzyiqlərinə tuş gələ bilərsiniz. Özünüzü qoruyun. Əgər işlə bağlı maneə yoxdursa, səfərə çıxmaq olar.

**QIZ** - Dünyanın yumru olduğunu bilmək heç də qeybi bilmək deyil. Bilmədiyiniz şeylər daha çoxdur. Avestanın vacib prinsiplərindən olan Xeyirxah Fikirlə qidalanın. Ruhdan düşməyin.

**TƏRƏZİ** - Günün birinci yarısında daxili süstlüyünüz ovqatınıza mənfi təsir göstərsə də, özünüzdə iradə toplamağı bacarmalısınız. Çünki sonrakı saatlarda sevindirici məqamlar yaşayacaqsınız.

**ƏQRƏB** - Sizi görmək arzusunda olanların kamını ürəklərində qoymayın. Əks təqdirdə, kimlərinsə qəlbinə dəyə bilərsiniz. Bu gün imkan tapıb müqəddəs ziyarətgahlara da baş çəkin.

**OXATAN** - Ötən günlərin rahatlığının ziddinə olaraq bu təqvimi bir qədər gərgin şəraitdə cərəyan edə bilər. Bu səbəbdən də sutkanı bir təhər ötürmək üçün saatları sadalayın.

**OĞLAQ** - Bu gün heç kimin məsləhətinə əhəmiyyət verməyin. Bütün qüvvənizlə ürəyinizin sözünə qulaq asın. Günün ikinci yarısında isə darıxdığınız yaxınlarınızın evinə baş çəkin ki, rəğbət oyadasınız.

**SUTÖKƏN** - Planetiniz olan Uranın aktivləşmə dərəcəsinə çatması daxili gücünüzü, enerjinizi artıracaq. Bu isə uzaq görünən bəzi məntəqələrə tez yetişməyinizə rəvac verəcək. Səfərdə ehtiyatlı olun.

**BALIQLAR** - Olduqca təzadlı gündür. Qarşınızı kəsən maneələri dəf etmək istəyirsinizsə, etibarlı adamların məsləhətindən yararlanın. Saat 16-18 arası ulduzlar sizi sevindirməyə çalışacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Anketlə evlənəcək qız axtarır



Türkiyənin Adana şəhərində yaşayan Doğukan Özkan adlı gənc evlənəcəyi qızı tapmaq üçün 60 sualdan ibarət anket hazırlayıb. Kompüter proqramçısı olan 30 yaşlı gənc bu günə qədər tanış olduğu heç bir qızla evlənmək istəməyib. 3 il televiziya kanallarındakı evlənmə proqramlarında da özünə evlənə biləcəyi qız axtarıb. Buna baxmayaraq, evlənə bilməyən oğlan “Doğukan evlənəcəyi qızı anketlə seçir” başlığı ilə suallar hazırlayıb və internet səhifəsinə yerləşdirib. O, evlənəcəyi qız haqqında bilmək istədiyi hər şeyi soruşub. Lakin bu günə qədər heç kəs anketdəki sualları cavablandırmayıb. Doğukan anketdəki sualların cavabına baxaraq ona uyğun qızı tapmaq istədiyini deyir.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300